2 mart 2022 №17 (1890) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri necə gedir?

Martın 1-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin tapşırığı ilə Baş nazir Əli Əsədovun və Prezident Administrasiyasının, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin başçılığı altında aidiyyəti dövlət qurumlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyətinin işğaldan azad olunmuş ərazilərə səfəri başlayıb.

Səfər çərçivəsində heyət əvvəlcə Füzuli Beynəlxalq Hava Limanında olub, sonra "Füzuli" yarımstansiyasına baxış keçirib.

səh. 2

## Qoşulmama Hərəkatının UNESCO yanında qrupunun plenar iclası

Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının UNESCO yanında qrupunun növbəti plenar iclası keçirilib. UNESCO-nun mənzil-qərargahında təşkil olunan iclasda qurumun İcraiyyə Şurasının sədri Tamara Rastovaç-Siamaşvili, Qoşulmama Hərəkatına üzv ölkələrin UNESCO yanında daimi nümayəndələri iştirak ediblər.

İclasda ötən plenar iclasın hesabatı dinlənilib və qəbul olunub. Tədbir QH ölkələrinin UNESCO orqanlarına namizədliyinə və müxtəlif məsələlərə dair müzakirələrlə davam edib.

səh. 2

## Ukraynadakı vətəndaşlarımız müxtəlif yollarla ölkəni tərk etməyə çalışırlar

### İki çarter reysi, bir qatar, avtobuslar...

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi martın 1-də Ukraynadakı vəziyyətlə bağlı bu ölkə ərazisində daimi və müvəqqəti yaşayan, səfərdə olan Azərbaycan vətəndaşlarının qonşu ölkələrə keçidi barədə məlumat yayıb.

Məlumatda bildirilir ki, Ukraynadakı Azərbaycan vətəndaşlarının qonşu ölkələrdən Moldova, Polşa, Slovakiya, Macarıstan və Rumıniya ərazisinə keçidi davam edir.

Sözügedən dövlətlərlə əldə edilmiş razılıq əsasında Azərbaycan vətəndaşlarının tranzit keçidi üçün viza tələbi müvəqqəti olaraq qaldırılıb, vətəndaşlar tərəfindən yalnız səyahət sənədi təqdim edilir, COVİD-19 pasportu və PCR testinin neqativ nəticəsi mütləq şəkildə tələb edilmir.

Məlumata görə, Ukraynada hərbi əməliyyatların başlanmasından (24 fevral) 1 mart tarixinədək quru yolla Moldovaya 950, Polşaya 447, Macarıstana 17, Rumıniyaya 200, Slovakiyaya isə 13 vətəndaşımız daxil olub.

Vətəndaşlarımız Azərbaycan Respublikasının Kiyev şəhərindəki səfirliyi ilə (+380 73) 5050000 telefon xətti və kiev@mission.mfa.gov.az elektron poçt ünvanı, Xarkov şəhərindəki fəxri konsulluğu ilə (+38057) 7000531 telefon xətti və info.azconsulate@gmail.com elektron poçt ünvanı ilə məlumat əldə edə bilərlər.

Qeyd edək ki, Ukraynadakı vəziyyətlə əlaqədar ölkəni tərk edərək Rumıniya ərazisinə Azərbaycan vətəndaşlarının təxliyəsini həyata keçirmək üçün təşkil olunan ikinci çarter reysi üzrə 176 sərnişin AZAL-ın təyyarəsi ilə martın 1-də şəhərə yaxın Bakıya gətirilib.

Martın 1-də 500-ə qədər Azərbaycan vətəndaşı Xarkovdan qatarla Polşa sərhədinə yola salınıb.

davamı səh. 2-də

## "Şuşa İli" mədəniyyətimizin ən zəngin ili olacaq

### Beş bölmə və 35 bənd üzrə tədbir və layihələr nəzərdə tutulub

"Şuşa İli" ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı imzalanıb. Tədbirlər Planı 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında" ölkə başçısının 2022-ci il 5 yanvar tarixli sərəncamının icrasını təmin etmək məqsədilə tərtib edilib.

Baş nazir Əli Əsədov tərəfindən fevralın 25-də təsdiq olunan Tədbirlər Planı beş bölmədən ibarətdir: Mədəni-kütləvi və idman tədbirləri; Elmi nəşrlərin, audiovizual və çap materiallarının hazırlanması; "Şuşa İli"nin beynəlxalq səviyyədə təbliği ilə əlaqədar tədbirlər; Tarixi-mədəni abidələrin bərpası, ekologiya və turizm üzrə tədbirlər; "Şuşa İli" ilə əlaqədar xatirə materiallarının və internet resurslarının hazırlanması.

Ümumilikdə il ərzində 35 bənd üzrə tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Tədbirlər Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Diaspora İş üzrə Dövlət Komitəsi, Dövlət Turizm Agentliyi və digər dövlət orqanları, Heydər Əliyev Fondu, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Yazıçılar Birliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC və başqa qurumların təşkilatçılığı və iştirakı ilə həyata keçiriləcək.




"Şuşa İli"nin ilk böyük tədbiri may ayında Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşkilatçılığı ilə keçiriləcək "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı olacaq.

İyul ayında Şuşada növbəti Vaqif Poeziya Günlərinin, iyul-avqust aylarında "Televiziya Muğam Müsabiqəsi 2022"nin final mərhələsinin və qaliblərin qala-konsertinin keçirilməsi planlaşdırılır. Həmçinin il ərzində "Şuşa 2022" beynəlxalq incəsənət, "Şuşanın 4 fəsli" ("4 seasons of Shusha") adlı beynəlxalq fotoqrafiya festivallarının və s. keçirilməsi nəzərdə tutulur.

ətraflı səh. 5-də

## Canı bahasına bayrağa sahib çıxan qəhrəman

Nizami Kino Mərkəzində Böyük Britaniyanın "Broken Pot Media" şirkətinin istehsalı olan "Oğul" sənədli filminin təqdimatı keçirilib.

Fevralın 28-də gerçəkləşən tədbirdə mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, nazirliyin əməkdaşları, yaradıcı heyət, filmin qəhrəmanı Natiq Qasımovun ailə üzvləri və digər qonaqlar iştirak edirdi.

Təqdimatdan öncə jurnalistlərin suallarını cavablandıran ekran işinin rejissoru və ssenari müəllifi Karan Sinq bildirdi ki, film italiyalı hərbi fotoreportyor Enriko Sarsininin dərc olunmuş fotoları əsasında ekranlaşdırılıb: "Mən Enriko ilə ilk dəfə görüşəndə onun Vyetnamla bağlı şəkilləri haqqında danışmaq istəyirdim. Amma daha sonra o, mənə Qarabağda baş verənlər haqqında danışdı. Ondan sonra başa düşdüm ki, bu hekayə bütün dünyaya tanıdılmalıdır. Bu bəşəri bir hekayədir. Bu filmi izləyən hər kəs ailədə itkinin nə demək olduğunu çox yaxşı anlayacaq".



Rejissor qeyd etdi ki, üç il ərzində ərsəyə gələn film ABŞ-da iki festivalda iştirak edib.

Film martın 1-dən "Park Cinema"da Azərbaycan və ingilis dillərində nümayiş olunacaq.

davamı səh. 2-də

## "FantazEU" festivalında "Qarışıq gözəllik" sərgisi

Xəbər verdiyimiz kimi, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin təşkilatçılığı ilə 1-18 mart tarixində Bakıda "FantazEU" adlı mədəni irs festivalı keçirilir.

Almaniya, Belçika, Bolqarıstan, Çexiya, Fransa, İsveç, Latviya, Litva, Macarıstan, Polşa, Slovakiya və Yunanıstanın iştirakı ilə təşkil olunan festival Avropa və Azərbaycan mədəni irsi arasında əlaqəni nümayiş etdirmək, Azərbaycanda Avropa mədəni irsinə diqqət yetirməklə, mədəni müxtəlifliyi təşviq etmək məqsədi daşıyır.

Martın 1-də "FantazEU" festivalı çərçivəsində rəssam Fəridə Qarayevanın "Qarışıq gözəllik" adlı fərdi sərgisi açılıb.

Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko bu qəbildən mədəni tədbirlərin əhəmiyyətindən danışıb. Bildirib ki, mədəni irs insanları birləşdirir: "Bu, festivalın ilk tədbiridir. Festivalın proqramı çox maraqlı və zəngindir.



Belə ki, proqramda ədəbiyyat gecələri, yerli və xarici rəssamların tədbirləri, kino nümayişləri olacaq. Belə mədəni tədbirlərin keçirilməsi Avropa ilə Azərbaycan arasında güclü tərəfdaşlığın inkişafına təkan verəcək...".

Sonra qonaqlar sərgi ilə tanış olublar.



## Həyatda qalmaq haqqında...

Londondakı "St Paul's" kilsəsində Xocalı soyqırımının 30-cu ildönümünə həsr edilmiş tamaşa nümayiş olunub. Tamaşa "Xocalı – həyatda qalmaq haqqında oyun" layihəsi çərçivəsində Britaniya Azərbaycanlıları İcması (BAC) və London Azərbaycan Evinin, Azərbaycan Respublikası Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə təqdim edilib.

səh. 8

## 30 il Birləşmiş Millətlərin sırasında

### Beş dəqiqə sürən iclasla başlanan tarix...

2 mart Azərbaycanın təqvimində yaddaqalan günlərdən biridir. 1992-ci ilin bu günündə Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olunaraq dünya birliyinə qoşulub.

Beləliklə, bu gün müstəqillik tariximizin əlamətdar yubileyidir. Eyni zamanda bu 30 il beynəlxalq münasibətlər sisteminin (geo) siyasi "anatomiya"sını öyrənmək və 1945-ci ildən BMT-nin Nizamnaməsində yazılan bir çox müddəaların kağız üzərindən gerçəkliyə necə transformasiya edildiyinə əmin olmaq üçün bizə böyük bir tarix dərsi olub...

14 fevral 1992-ci il. BMT Təhlükəsizlik Şurasının 3052-ci iclası yerli (Nyu-York) vaxtla saat 16:25-də başlanır. Təşkilatın elektron arxivində saxlanılan stenoqramda vaxt dəqiqliyi ilə qeydə alınıb. TŞ-nin 15 üzvünün (5 daimi, 10 qeyri-daimi) iştirak etdiyi iclasa ABŞ təmsilçisi Tomas Pikerinq sədrlik edir. Sədr BMT-yə yeni üzvlərin qəbulu üzrə Komitənin Azərbaycanla bağlı məruzəsinin daxil olduğunu bildirir. Komitənin təqdim etdiyi müvafiq qətnamə layihəsinə heç bir irad yoxdur. 742 saylı qətnamə səsvermə yolu ilə qəbul edilir.

T.Pikerinq TŞ-nin tövsiyə qərarının Baş Assambleyanın sessiyasına çıxarılmaq üçün BMT Baş katibinə təqdim olunacağını deyir və qısa bəyanatla çıxış edir: "Təhlükəsizlik Şurası indicə Azərbaycan Respublikasını



BMT üzvlüyünə qəbul etməyi Baş Assambleyaya tövsiyə etdi. Mən böyük məmnuniyyətlə TŞ üzvləri adından Azərbaycan Respublikasını bu sevincli və tarixi hadisə münasibətilə təbrik edirəm. TŞ üzvləri səbirsizliklə Azərbaycanın BMT üzvü kimi bizim sıralarımıza qoşulacağı günü gözləyir".

Saat 16:30. İclas başa çatır...

davamı səh. 2-də

### Xalq artisti son mənzilə yola salınıb



səh. 4

### Polşanın ölkəmizdəki səfiri ilə mədəni əməkdaşlıq müzakirə olunub

səh. 3



### Qəlblərə təravət gətirən şeirlər müəllifi

səh. 4

# Gənclərin xarici ölkələrdə təhsili ilə bağlı yeni Dövlət Proqramı təsdiq olunub

Azərbaycan gənclərinə xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil almağa imkan yaradan yeni Dövlət Proqramı qəbul olunub. Proqram beş il müddətinə nəzərdə tutulub.

Prezident İlham Əliyev fevralın 28-də "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb.

Dövlət Proqramı "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" ölkə başçısının 2021-ci il 30 sentyabr tarixli sərəncamına əsasən hazırlanıb.

Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirmək Azərbaycan Respublikasının Təhsil Nazirliyinə tapşırılıb. Proqramda nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Təhsil Nazirliyinin sifarişi əsasında İqtisadiyyat Nazirliyi həyata keçirəcək.

Təhsil Nazirliyi tərəfindən mütəmadi olaraq Dövlət Proqramı iştirakçılarının tədris dövründə müvəffəqiyyət göstəriciləri izləniləcək, onların təhsil göstəriciləri barədə məlumatlar toplanılacaq və qiymətləndiriləcək. Qiymətləndirilmə nəticələrindən asılı olaraq, Dövlət Proqramı iştirakçılarının təhsilinin maliyyələşdirilməsinin davam etdirilməsi barədə qərar qəbul olunacaq.

# Azərbaycan-ABŞ diplomatik münasibətlərinin 30-cu ildönümü

Fevralın 28-də Xarici İşlər Nazirliyində (XİN) Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir və sərgi keçirilib.




Tədbirdə çıxış edən xarici işlər nazirinin müavini Elnur Məmmədov 30 il ərzində Azərbaycan və ABŞ arasında münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq prinsipləri çərçivəsində inkişaf yolu keçdiyini qeyd edib. Nazir müavini Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra, xüsusilə 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra iki ölkə arasında münasibətlərin inkişafında yeni dönəmə qədəm qoymasını və 1994-cü ildə imzalanan tarixi "Əsrin müqaviləsi"ndən sonra ABŞ və Azərbaycan arasında iqtisadi əlaqələrin dərinləşdiyini qeyd edib. Müasir mərhələdə ikitərəfli münasibətlərin bir çox istiqamətdə inkişafından danışan E.Məmmədov, xüsusilə diqqəti postmünaqişə mərhələsində azad olunmuş ərazilərdə böyük layihələrin icrasında ABŞ-ın mümkün roluna yönəldib və quruculuq səylərində ABŞ şirkətlərinin fəal iştirakının tərəfimizdən dəstəkləndiyini bildirib.

Daha sonra çıxış edən ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberqer 30 il ərzində Azərbaycan və ABŞ arasında əlaqələrin müxtəlif sahələri, o cümlədən qanunun aliliyi, iqtisadiyyat, enerji, təhlükəsizlik sahələrini əhatə etdiyini və iki ölkə arasında sözügedən sahələrdə tərəfdaşlıq əlaqələrinin qurulduğunu qeyd edib. Azərbaycanın bir çox beynəlxalq sülhməramlı əməliyyatlara töhfə verdiyini bildirən səfir bu xüsusda Azərbaycan sülhməramlılarının Əfqanıstanda təhlükəsizliyin təmin olunması istiqamətində fəaliyyətini qeyd edib, həmçinin Azərbaycanın Əfqanıstana ilk sülhməramlılar göndərən və öz sülhməramlılarını sonuncu çıxaran ölkə olduğunu minnətdarlıqla vurğulayıb. L.Litzenberger ABŞ-ın gələcəkdə də sabitliyin, rifahın qorunması istiqamətində sadiq tərəfdaş olacağını bildirib.

Sonra tədbir iştirakçıları Azərbaycan və ABŞ arasında diplomatik münasibətlərin 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

# Ukraynadakı vətəndaşlarımız müxtəlif yollarla ölkəni tərk etməyə çalışırlar

*əvvəli səh. 1-də*

Martın 1-də 650-yə qədər Azərbaycan vətəndaşı Xarkovdan qatarla Polşa sərhədinə yola salınıb.

Martın 2-də Odessadan 200-ə yaxın azərbaycanlının təxliyəsi nəzərdə tutulur. Bu barədə Odessa Azərbaycanlılarının Diasporu "Birlik" İctimai Təşkilatının sədri Rövşən Quliyev məlumat verib. O bildirib ki, təxliyə üçün 300-ə yaxın azərbaycanlı müraciət edib, əlavə avtobusların ayrılması üçün də çalışırıq.

Ukraynanın müvafiq dövlət qurumları Azərbaycan vətəndaşlarının Kiyevdən təxliyəsi üçün 1200 nəfərlik qatar ayrılmasına qərar verib. Ukrayna Azərbaycanlıları Radasının baş katibi Ceyhun Məmmədov (Kəsəmən) bildirib ki, qatar martın 2-də Kiyevdən Moldova sərhədinə yola düşməlidir.

# Azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri necə gedir?

## Baş nazir və Prezident Administrasiyası rəhbəri görülən işlərlə tanış olublar

Martın 1-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin tapşırığı ilə Baş nazir Əli Əsədovun və Prezident Administrasiyasının, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin başçılığı altında aidiyyəti dövlət qurumlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyətinin işğaldan azad olunmuş ərazilərə səfəri başlayıb.

Məqsəd dövlətimizin başçısı tərəfindən müəyyən edilmiş tapşırıqların icrası ilə yerində tanış olmaq, müxtəlif dövlət qurumlarının həyata keçirdiyi genişmiqyaslı infrastruktur layihələrinin, tikinti, bərpa, quruculuq və abadlaşdırma işlərinin gedişatını nəzərdən keçirməkdir.




Səfər çərçivəsində heyət əvvəlcə Füzuli Beynəlxalq Hava Limanında olub, sonra "Füzuli" yarımstansiyasına baxış keçirilib.

Heyət Horadiz-Ağbənd avtomobil və dəmir yollarının tikinti sahələrində də olub. Minatəmizləmə əməliyyatlarına, "Araz Vadisi İqtisadi Zonası"nın Sənaye Parkına, Zəngilan Beynəlxalq Hava Limanının tikintisinə, Zəngilan rayonunun yenidən qurulan Ağalı kəndinə və s. yerlərə baxış keçirilib.

Yekunda Şuşa şəhərində aidiyyəti dövlət qurumları rəhbərlərinin iştirakı ilə müşavirə keçirilib.

# Canı bahasına bayrağa sahib çıxan qəhrəman

## "Oğul" sənədli filminin təqdimatı keçirildi






*əvvəli səh. 1-də*

Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev film haqqında məlumat verdi. Bildirdi ki, ekran əsəri Azərbaycan bayrağını düşmənə təslim etməyən, sonra aqibəti bəlli olmayan cəsur Vətən oğlundan bəhs edir: "Mənim yaxın bir qohumum da Şuşada itkin düşmüşdü. Ona görə də bu ağrı mənə çox yaxındır. Film, əslində, Azərbaycan tarixinin bir səhifəsinin ifadəsidir. Filmdə bir çox maraqlı məqamlar var. Xocalı faciəsi ilk növbədə düşmənimizi tanımaqda çox vacib bir mərhələ oldu. Düşmənin bu amansızlığını araşdıraraq niyə bizə belə böyük nifrət etdiklərini anlamaqla, əslində, öz tariximizi araşdırmağa başladıq".

Bu il Xocalı faciəsinin 30-cu ildönümünün qeyd edildiyini söyləyən Elnur Əliyev Xocalı soyqırımına münasibətin həm də mədəniyyət məsələsi olduğunu bildirdi: "Xocalı soyqırımı milliyyətindən, dinindən asılı olmayaraq hər bir insan üçün böyük faciədir. Ancaq biz görürük ki, düşmən hələ də bunu facie olaraq qəbul edə bilmir, hətta əsaslandırmağa çalışır. Bu gün Xocalı soyqırımı haqqında danışmaqda bizim məqsədimiz bu faciənin bir daha baş verməsinin qarşısını almaqdır. Mən Britaniyadan gələn qonaqlarımıza təşəkkür edirəm. Onlar bu mövzuya diqqət yönəldib, belə bir film ərsəyə gətiriblər".

Daha sonra "Oğul" sənədli filmi nümayiş olundu.

Sonda ekran əsərinin rejissoru və ssenari müəllifi Karan Sinq çıxış edərək filmin nümayişində göstərdiyi dəstəyə görə Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirdi.

Qeyd edək ki, film 1992-ci ildə, Birinci Qarabağ müharibəsi zamanı əsir götürülən azərbaycanlı hərbçi Natiq Qasımov haqqındadır. Natiq müharibə zamanı beş gün təkbaşına mühasirədə qalır, ermənilərə müqavimət göstərərək təslim olmur. Yalnız ermənilər onu Xocalıda girov götürülən 22 sakini öldürəcəkləri ilə təhdid etdikdən sonra silahını ataraq sığındığı alban kilsəsindən çıxır. Lakin son ana qədər əlindəki Azərbaycan bayrağını ermənilərə vermir. Natiq Qasımovun sonrakı aqibəti məlum deyil.

Rejissor K.Sinq üç il Ermənistan, Azərbaycan, İtaliya, Böyük Britaniya və Rusiyada şahidlərlə danışıb. Natiq Qasımov erməni hərbçiləri tərəfindən dindirilən zaman orada olan italiyalı hərbi fotoreportyor Enriko Sarsininin müsahibəsi də filmdə yer alıb.

Təsvir rejissoru Simon Stanford olan 46 dəqiqəlik filmdə faktın bərpası üçün azərbaycanlı aktyorların ifasından da istifadə edilib.

**Nurəddin Məmmədli**

# Qoşulmama Hərəkatının UNESCO yanında qrupunun 2022-ci ildə ilk plenar iclası

Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının (QH) UNESCO yanında qrupunun növbəti plenar iclası keçirilib. UNESCO-nun mənzil-qərargahında təşkil olunan iclasda qurumun İcraiyyə Şurasının sədri Tamara Rastovaç-Siamaşvili, Qoşulmama Hərəkatına üzv ölkələrin UNESCO yanında daimi nümayəndələri iştirak ediblər.







Plenar iclası giriş sözü ilə açan Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi, səfir Elman Abdullayev son 2 ildə dünyanı dəyişdirən COVİD-19 ilə mübarizənin davam etdiyini, pandemiyanın yeni çağırışlar, yeni çətinliklər yaratdığını qeyd edib. Vurğulanıb ki, 120 ölkəni bir araya gətirən Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan dünyanın hər yerində hər bir insan üçün COVİD-19 əleyhinə peyvəndin səmərəli və əlçatan olması istiqamətində səylərini davam etdirir.

Qoşulmama Hərəkatının dünyanın ikinci ən böyük siyasi platforması olduğunu qeyd edən səfir diqqətə çatdırıb ki, UNESCO-nun yeni seçilmiş İcraiyyə Şurasında 58 ölkədən 34-ü QH üzvüdür.

Sonra UNESCO İcraiyyə Şurasının sədri Tamara Rastovaç-Siamaşvili çıxış edib. O, İcraiyyə Şurasının yeni formatından, yeni seçilmiş üzvlərlə aparılan işlərdən söhbət açıb. Qoşulmama Hərəkatının çox mühüm platforma olduğunu vurğulayan İcraiyyə Şurasının yeni sədri iclas iştirakçılarının suallarını cavablandırıb.

İclasda Bakıda Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsinin Azərbaycan Milli Bölməsinin təşkilatçılığı ilə ADA Universitetində keçirilmiş "Milli Qoşulmama Hərəkatının modeli simulyasiyası" konfransından danışılıb. Bildirilib ki, konfransda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov gənclərin Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinə qoşulmasının təşviq olunduğunu qeyd edib və bunun innovativ həllər, sosial inkişaf gətirəcəyini və gənclərin şəbəkələşməsini formalaşdıracağını deyib.

İclas iştirakçılarının diqqətinə çatdırılıb ki, Azərbaycan Hökuməti 2022/2023-cü tədris ili üçün İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına ölkənin nüfuzlu universitetlərində təqaüdlərin verilməsi haqqında qərar qəbul edib.

İclasda ötən plenar iclasın hesabatı dinlənilib və qəbul olunub. Tədbir QH ölkələrinin UNESCO orqanlarına namizədliyinə və müxtəlif məsələlərə dair müzakirələrlə davam edib.

# 30 il Birləşmiş Millətlərin sırasında

## Beş dəqiqə sürən iclasla başlanan tarix...



*əvvəli səh. 1-də*

...2 mart 1992-ci il. Baş Assambleyanın 46-cı sessiyasının 82-ci iclasının gündəliyindəki məsələ BMT-yə yeni üzvlərin – keçmiş sovet respublikalarının qəbulu barədədir. Qısa sürən prosedur və 46/230 saylı qərar oxunur: "Baş Assambleya BMT TŞ-nin 14 fevral 1992-ci il tarixli tövsiyəsini, Azərbaycan Respublikasının ərizəsini nəzərdən keçirib, qərara alır: Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının üzvlüyünə qəbul olunsun".

Azərbaycanın beynəlxalq birliyə inteqrasiya yolu beləcə başladı. İlk baxışda asan proses, rəvan bir yolçuluq. Amma deyil. Çünki ilk baxışda görünən zatən üzdə olandır. 1992-ci ildə bizimlə birgə BMT üzvlərinin sayı 179-a çatmışdı. Bu gün Nyu-Yorkda İst-River sahilindəki o möhtəşəm binanın önündə 193 ölkənin bayraqları dalğalanır.

Elə ölkələr də var ki, uzun illər BMT üzvlüyünə heç ehtiyac duymayıb. Avropanın ən rifahlı və uzun dövlətçilik tarixinə malik ölkələrindən olan İsveçrə yalnız 2002-ci ildə keçirilmiş referendumdan sonra əhalisinin yarıdan çoxunun istəyi ilə Birləşmiş Millətlərin sırasına qoşulub.

Azərbaycan kimi yeni müstəqillik qazanmış ölkələr üçün isə BMT üzvlüyü bu müstəqilliyin təsdiq olunmasında müstəsna şərtlərdən biri idi. Amma tarixin gərdişi elə gətirdi ki, ölkəmiz Birləşmiş Millətlərin sırasına qatılanda, bayrağımız BMT-nin binası önündə dalğalanmağa başlayanda bu hadisəyə sevinmək şansımız olmamışdı. Çünki bu xəbəri Xocalı faciəsinin acısı içində eşitmişdik. 1992-ci il martın 2-si Azərbaycanda Xocalı qətliamı ilə bağlı elan edilmiş üçgünlük rəsmi matəmdən yenicə çıxmışdıq...

Əslində, dünya Azərbaycanı sıralarına qəbul edənədək bir neçə ildir alovlanan Dağlıq Qarabağ münaqişəsi sayəsində bizdən və yerləşdiyimiz regiondan xəbərdar idi. Nə dərəcədə xəbərdar idi – bu ayrı məsələ. Hər halda 742 saylı qətnamədən bir il sonra BMT TŞ-nin dörd dəfə bu münaqişə ilə bağlı toplaşaraq qəbul etdiyi qətnamələrin (822, 853, 874, 884) illərlə kağız üzərində qalması beynəlxalq birliyin mahiyyətindəki "standartlar"dan xəbər verirdi.

BMT kimi qarışıq, polifonik bir siyasi ortamda öz səsini eşitdirmək, üstəlik, dünyaya yön verən böyük güclərin səni dinləməsinə nail olmaq asan deyil. Hələ ölkə olaraq yerləşdiyin coğrafiya həmin güclərin geosiyasi çarpışma dairəsindədirsə, bu, çox müşkül məsələdir.

Məhz buna görə Azərbaycan rəhbərliyinin ötən illər ərzində həm beynəlxalq, həm də regional müstəvidə həyata keçirdiyi kurs balanslaşdırılmış diplomatiya olub. Çünki müstəqilliyimizin ilk iki ilində dövlətimizin yaşadığı dərin böhran daxili siyasətdəki səbatsızlıqla bərabər xarici siyasətdəki natarazlığın nəticəsi idi. Məhz çoxvektorlu, tarazlı diplomatiya sayəsində Azərbaycan Respublikası 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv (2012-2013-cü illər) seçildi...

Bu gün BMT, əslində, 77 il əvvəl təməli qoyulanda bəyan edilən niyyətdən çox fərqli bir qurumdur. Burada kimin sözünün və səsinin necə keçdiyi, 15 yerlik Təhlükəsizlik Şurasının 5 böyüyün (daimi üzvlər) ambisiyalarına meydan olduğu da çoxdan göz qabağındadır. O 5 böyüyün də artıq 3+1+1 şəklində olduğu da...

30 il öncə Azərbaycan üçün BMT-yə üzv olmaq, ilk növbədə, ən böyük dərdini, Ermənistan tərəfindən məruz qaldığı hərbi təcavüzü dünyanın diqqətinə çatdırmaq baxımından önəmli idi. Düz 28 il biz BMT-yə və bütövlükdə beynəlxalq təsisatlarla münasibətlərimizə həmin prizmadan, Qarabağ pəncərəsindən baxdıq. Sonda beynəlxalq hüquq və ədalətə bəslədiyimiz ümidlərin xeyli dərəcədə illüziya olduğunu, BMT də daxil olmaqla, bütün beynəlxalq qurumlarda çox şeyin böyük mənafelərin fonunda cərəyan etdiyini dərk etdik...

Və 2020-ci ilin 27 sentyabrında bu gerçəyə öz möhürümüzü vurmaq qərarına gəldik. 44 gününün içində, 30 illik işğala son qoymaqla bərabər, 28 il BMT TŞ-nin arxivində toz basan dörd qətnaməni də kağız üzərindən icraata keçirdik...

**Vüqar Orxan**

# Filarmoniyada anım konserti

## Xocalıya musiqili ithaf

İşğalçı erməni silahlı dəstələrinin sovet ordusunun Xankəndidəki 366-cı motoatıcı alayının dəstəyi ilə Azərbaycanın Xocalı şəhərində dinc sakinlərə qarşı həyata keçirdiyi soyqırımının 30 ili tamam oldu. XX əsrin ən dəhşətli faciələrindən olan Xocalı qırğını təkcə Azərbaycan xalqına deyil, bütün insanlıq əleyhinə cinayət kimi tarixin qara səhifəsinə çevrilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 28 yanvar 2022-ci il tarixdə faciənin otuzuncu ildönümünün qeyd olunması haqqında sərəncam imzalayıb. Sərəncamın icrası ilə əlaqədar ölkəmizdə və xaricdə faciə qurbanlarının xatirəsinin yad olunması məqsədilə silsilə tədbirlər – sərgi, konfrans, anım konserti, film nümayişləri və s. təşkil edildi.



Fevralın 25-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında anım konserti keçirildi. Konsertdə mədəniyyət naziri Anar Kərimov, nazirliyin əməkdaşları və digər qonaqlar iştirak edirdilər.

Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının və Xocalı faciəsi qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Konsert proqramında ilk olaraq Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (dirijor – Mustafa Mehmandarov) Aqşin Əlizadənin 5 nömrəli simfoniyasını səsləndirdi. Ardınca Fikrət Əmirovun "Nizaminin xatirəsinə" simli simfoniyasından III hissə və Qara Qarayevin "İldırımlı yollarla" baletindən "Laylay" ifa olundu.

Sonra səhnəyə Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər – Xalq artisti Gülbacı İmanova) çıxdı. Xorun ifasında səslənən Rauf Əliyevin "Azadlığa gedən yollar" və "Xocalıya ithaf" əsərləri otuz il əvvəl yaşanan bəşəri müsibətin yaddaşlardan heç zaman silinməyəcəyinin təcəssümü idi.

**Nurəddin**

# Özünüzü "Yüksəliş"də sınayın

Bu il ölkəmizdə ikinci dəfə keçirilən "Yüksəliş" müsabiqəsinin qeydiyyat mərhələsi martın 31-dək davam edəcək.

Mədəniyyət naziri Anar Kərimov "Yüksəliş" müsabiqəsi ilə bağlı müraciət edib. Müraciətdə deyilir:

"Əziz dostlar, artıq ikinci dəfədir ki, təşkil olunan, sizə öz bilik-bacarıqlarınızı və qabiliyyətinizi göstərməyə şərait yaradan "Yüksəliş" müsabiqəsi cəmiyyətimizə bir çox istedadlı idarəçiləri tanıtdı. Bu gün Azərbaycan öz tarixinin ən şanlı və məsuliyyətli dövrünü yaşayır. Həm ümumi sosial-iqtisadi və mədəni inkişaf, həm də işğaldan azad olunmuş ərazilərə şanlı qayıdış ölkə rəhbərliyi, Prezident İlham Əliyev tərəfindən müəyyən olunmuş ən ali məqsədlərdəndir. Bu proseslərdə xüsusi idarəetmə bacarığı ilə seçilən insanlara böyük önəm verilir. Mən hər birinizi özünə güvənməyə və artıq öz potensialını təsdiqləmiş "Yüksəliş" müsabiqəsinə qatılmağa çağırıram".

Qeyd edək ki, qeydiyyat mərhələsinə fevralın 17-də start verilən "Yüksəliş" müsabiqəsində 21–51 yaş arasında olan, ali təhsilli, ən azı 2 il idarəçilik təcrübəsinə malik Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər. Qeydiyyat müsabiqənin saytı (www.yukselish.az) vasitəsilə həyata keçirilir.

"Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il iyulun 26-da imzaladığı müvafiq sərəncamla intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

# Nazir Anar Kərimov Polşanın ölkəmizdəki səfiri ilə görüşüb

Mədəniyyət naziri Anar Kərimov fevralın 24-də Polşa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rafal Poborski ilə görüşüb.



Səfiri salamlayan nazir Anar Kərimov iki ölkə arasında tarixən mövcud olan dostluq əlaqələrindən söhbət açıb. Ölkələrimiz arasında mədəni əməkdaşlığın daha da genişləndirilməsi üçün əlverişli imkanların olduğu vurğulanıb.

Nazir ölkəmizin irəli sürdüyü "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kampaniyası haqqında məlumat verərək, Polşanı da bu qlobal çağırışa qoşulmağa dəvət edib. Bildirib ki, bu kampaniya mədəni irsin qorunması, dinc və dayanıqlı sülhsevər cəmiyyətlərin qurulması, eləcə də sülhün əldə olunmasında mədəniyyətin rolu ilə yanaşı, mədəniyyətin inkişafında sülhün rolunun öyrənilməsi məqsədi daşıyır.

Qəbula görə təşəkkürünü bildirən səfir Rafal Poborski iki ölkə arasında mədəniyyət sahəsində əlaqələrin sıx olduğunu və hərtərəfli münasibətlərin dərinləşməsinə töhfə verəcəyini bildirib.

Görüşdə bu günlərdə 30 illiyi tamam olan Azərbaycan-Polşa diplomatik münasibətlərinin dostluq və qarşılıqlı faydalı əməkdaşlıq zəminində davam etməsindən məmnunluq ifadə olunub.

# Mədəniyyət nazirinin birinci müavini Eldar Mansurovu təbrik edib



Fevralın 28-də 70 yaşı tamam olan tanınmış bəstəkar, Xalq artisti Eldar Mansurov dövlət başçısı tərəfindən "Şöhrət" ordeni ilə təltif edilib. Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, Eldar Bəhram oğlu Mansurov Azərbaycan musiqi sənətinin inkişafında xidmətlərinə görə bu ordenə layiq görülüb.

Mədəniyyət Nazirliyinin rəhbərliyi də yubilyar sənətkarı təbrik edib. Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev nazir Anar Kərimovun təbrik məktubunu bəstəkara təqdim edib və doğum günü münasibətilə ona xoş arzularını çatdırıb. Elnur Əliyev həmçinin bəstəkarı Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Şöhrət" ordeni ilə təltif olunması münasibətilə təbrik edib.

Eldar Mansurov sənətinə göstərilən diqqət və qayğıya görə dərin minnətdarlığını ifadə edib.

Azərbaycan bəstəkarlıq məktəbinin layiqli nümayəndələrindən olan E.Mansurov müxtəlif janrlarda əsərlərin – "Yeddi gözəl" rok-operası, "Kleopatra", "Olimp" rok-baletləri, "Mahur-hindi" simfonik muğamı, simfoniyalar, kamera və xor əsərləri, film və tamaşalara musiqilərin müəllifidir. Bəstəkarın yaradıcılığında mahnı janrı xüsusi yer tutur. Onun 1989-cu ildə Brilliant Dadaşovanın ifasında böyük populyarlıq qazanan "Bayatılar"ı (söz – Vahid Əziz) bu günə kimi ən sevimli mahnılar sırasındadır.

# "Günümüzün gəncləri" – fortepiano musiqi axşamı

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və orqan musiqisi zalında "Gənclərə dəstək" layihəsi çərçivəsində "Günümüzün gəncləri" adlı konsert təşkil olunub.

Konsertdə respublika və beynəlxalq müsabiqələr laureatları, Prezident təqaüdçüləri Vurğun Vəkilov və Atabala Manafzadə çıxış ediblər.

Proqramda Modest Musorqskinin "Sərgidən şəkillər", Aleksandr Skryabinin "Sonata № 3", Sergey Raxmaninovun "Prelüd №7" əsərləri səsləndirilib. İfalar alqışlarla qarşılanıb.



"Gənclərə dəstək" layihəsi ölkədə gənc istedadların üzə çıxarılması və dəstəklənməsi məqsədilə həyata keçirilir. Layihə çərçivəsində təqdim olunan proqramlar müxtəlif zövqlərə malik çox geniş auditoriyaya – akademik üslub, muğam, caz, estrada, eləcə də xor musiqisi həvəskarlarına ünvanlanıb.

# Akademik Rus Dram Teatrı premyeraya hazırlaşır

Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında Xalq yazıçısı Maqsud İbrahimbəyovun "Qara paltarlı qadın gəlirdi" romanı əsasında səhnələşdirilən tamaşanın premyerası 26-27 mart tarixlərində olacaq.




Teatrdan verilən məlumata görə, "Və qadın gəlirdi..." adlı tamaşanın quruluşçu rejissoru Xalq artisti Aleksandr Şarovski, səhnə tərtibatçısı Azərbaycanın və SSRİ-nin Xalq rəssamı Tahir Salahov, dekorasiya rəssamı Əməkdar mədəniyyət işçisi Aleksandr Fyodorov, geyim rəssamları Anna İbrahimova və Əməkdar mədəniyyət işçisi Olqa Abbasovadır.

Tamaşanın musiqi həlli Əməkdar mədəniyyət işçisi Vladimir Neverova, xoreoqrafiya və səhnə plastikası Xalq artisti Fuad Osmanova məxsusdur. Xoreoqrafiya üzrə assistentlər Əməkdar artistlər Mariya Duboviskaya və Həcər Ağayevadır.

Rolları Xalq artistləri Məbud Məhərrəmov və Fuad Osmanov, Əməkdar artistlər Həcər Ağayeva, Mariya Duboviskaya, Oleq Əmirbəyov, Murad Məmmədov, Salman Bayramov və Yuri Omelçenko ifa edirlər.

Maqsud İbrahimbəyovun romanında hadisələr XX əsrin 80-90-cı illərində Abşeronda, dənizkənarı yaşayış məntəqələrindən birində cərəyan edir.

**Lalə**

Bölgələrdən xəbərlər

# Xocalıda buza dönən arzular

Xocalı faciəsinin 30-cu ildönümü ilə bağlı bölgələrdə fəaliyyət göstərən bir sıra mədəniyyət müəssisələrində tədbirlər təşkil olunub.



Kürdəmir Regional Mədəniyyət İdarəsi (RMİ) Füzuli rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Xocalı faciəsi bəşəriyyətə qarşı törədilmiş ən qanlı soyqırımı aktıdır" adlı elmi-praktik konfrans keçirilib. Tədbirdə məktəblilərin ifasında Xocalı faciəsinə həsr edilən şeirlər səsləndirilib. Sonra "Xocalı harayı" adlı videoçarx izlənilib.

Sumqayıt RMİ Qubadlı rayon F.Hüseynov adına Mahmudlu kənd Uşaq musiqi məktəbində "Xocalı - qan yaddaşımız" adlı tədbir keçirilib. Müəllim və şagirdlərin ifasında səhnəciklər göstərilib, şeirlər səsləndirilib, mahnılar ifa olunub.

Masallı RMİ Cəlilabad rayon Heydər Əliyev Mərkəzində təşkil olunan anım tədbirində çıxış edən Cəlilabad RİH başçısı Rafiq Cəlilov Xocalı soyqırımının ağır nəticələrindən danışıb. Tədbir iştirakçıları Xocalı soyqırımı ilə bağlı filmi izlədikdən sonra mərkəzin foyesində rəsm sərgisi ilə tanış olublar.

Şəmkir RMİ Gədəbəy rayon Heydər Əliyev Mərkəzində yuxarı sinif şagirdlərinin əl işlərindən ibarət "Gənclərin gözündə Xocalı" adlı rəsm sərgisi təşkil edilib.

Lənkəran RMİ-nin təşkilatçılığı ilə Lənkəran rayon Heydər Əliyev Mərkəzində "Yarımçıq xatirələr" filmi nümayiş olunub. İdarə rəisi Şahin Şahbazovun da iştirak etdiyi tədbirdən əvvəl qonaqlar mərkəzin foyesində Xocalı soyqırımı və Qarabağ müharibəsi mövzusuna həsr olunmuş rəsm sərgisi ilə tanış olublar. Sonra tamaşaçılar Mədəniyyət Nazirliyinin sifarişi ilə çəkilmiş "Yarımçıq xatirələr" filmini izləyiblər.

Lerik rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə iştirakçılar mərkəzin foyesində məktəblilərin tariximizin bu qanlı səhifəsinə həsr etdikləri əl işlərindən ibarət sərgiyə və Vətən müharibəsi şəhidlərinin xatirə lövhəsinə baxıblar. Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev və Lənkəran RMİ-nin rəisi Ş.Şahbazovun çıxışlarından sonra Lənkəran şəhər C.Cabbarlı adına 1 nömrəli Uşaq musiqi məktəbi xor kollektivinin ifası dinlənilib.



Sabirabad RMİ Hacıqabul rayon mədəniyyət müəssisələrinin birgə təşkilatçılığı ilə rayon Mədəniyyət Mərkəzində "Yarımçıq qalmış arzular" adlı ədəbi-bədii kompozisiya nümayiş olunub. RİH başçısı Rüstəm Xəlilov, rayonun idarə, müəssisələri əməkdaşlarının iştirak etdiyi tədbirdə mərkəzin foyesində açılan sərgiyə baxış keçirilib.

Ağdaş RMİ-nin dəvəti ilə Mingəçevir Dövlət Dram Teatrı Zərdab rayon Mədəniyyət Mərkəzində Sevinc Elseverin "Ürəyində arzu tut" tamaşasını nümayiş etdirib. Tamaşadan əvvəl qonaqlar mərkəzin dərnək üzvlərinin əl işlərindən ibarət rəsm və Zərdab rayon MKS-nin əməkdaşları tərəfindən hazırlanmış kitab sərgiləri ilə tanış olublar.

Faciənin ildönümü münasibətilə Zərdab Rayon Tarix-Diyarşünaslıq Muzeyi "Xocalı soyqırımı XX əsrin faciəsidir", Göyçay rayon Heydər Əliyev Mərkəzi "Xocalı soyqırımı bəşəriyyət tarixinin ən dəhşətli səhifəsidir", Göyçay rayon MKS isə "Qan gölündə boğulan şəhər" adlı tədbirlər keçiriblər.

Bərdə RMİ və Tərtər RİH-nin birgə təşkilatçılığı ilə Tərtər rayon Mədəniyyət Mərkəzinin hazırladığı "Zülmətdən işığa" adlı ədəbi-bədii kompozisiya nümayiş etdirilib. Nümayişdən əvvəl Tərtər RİH-nin başçısı Müstəqim Məmmədov və Bərdə RMİ-nin rəisi İlyas Hacıyev çıxış ediblər.

Xaçmaz RMİ Şabran rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsində "Xocalı fəryadı – kədər himnimiz" adlı ədəbi-bədii kompozisiya təşkil edilib.

İsmayıllı RMİ Ağsu rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Ağsu şəhər Mədəniyyət evində "Buza dönmüş arzular" adlı tamaşa təqdim olunub. Səhnə işi o müdhiş gecədə erməni vandallarının Xocalı sakini olan Cəlil kişinin ailəsinin başına gətirdiyi müsibətlərdən bəhs edir.

Şəki RMİ Balakən rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "Xocalı harayı" adlı tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə mərkəzdə təşkil edilən "Xocalını unutma!" adlı sərgiyə baxıblar. Daha sonra Xocalı hadisələrini əks etdirilən film nümayiş olunub.



Gəncə RMİ Gəncə şəhər MKS-nin 19 saylı kitabxana filialı "Xocalı naləsi məktəblilərin qəlbində" adlı ədəbi-bədii kompozisiya nümayiş etdirib. Goranboy rayon Aşağı Ağcakənd qəsəbəsindəki Xocalı soyqırımı abidəsi önündə ümumrayon tədbiri keçirilib.

Ağcabədi RMİ Ağdam rayon C.Qaryağdıoğlu adına 1 saylı Uşaq musiqi məktəbində keçirilən anım tədbirində şagirdlərin iştirakı ilə ədəbi-bədii proqram təqdim edilib.



Biləsuvar RMİ Neftçala rayon Mədəniyyət Mərkəzində "Salam, Xocalı dərdim!" adlı ədəbi-bədii kompozisiya nümayiş etdirilib. Neftçala Dövlət Rəsm Qalereyası isə rayonun Heydər Əliyev Mərkəzində "Xocalıya ədalət!" adlı sərgi təşkil edib.

Ağstafa RMİ Qazax şəhər 2 nömrəli Uşaq musiqi məktəbinin kollektivi "Xocalı fəryadı" adlı ədəbi-bədii kompozisiya təşkil edib. Tədbirdə məktəbin direktoru Ramil Qurbanov, Qazax Rayon Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının sədri İsgəndər Qurbanov və Qazax Dövlət Dram Teatrının direktoru Saqif İsgəndərovun çıxışları dinlənilib.

## Vətənin qəhrəmanları unudulmur

Sumqayıt RMİ Sumqayıt şəhər MKS N.Gəncəvi adına Kitabxana-klubun əməkdaşları Vətən Müharibəsi Qəhrəmanı, Xüsusi Təyinatlı Qüvvələrin baş giziri şəhid Camal İsmayılovun ailəsini ziyarət ediblər. RMİ-nin Qubadlı rayon nümayəndəliyində Birinci Qarabağ müharibəsi şəhidi Müslüm Cəbrayılovun 50 illiyi münasibətilə anım tədbiri keçirilib.

Ağcabədi RMİ Ağdam rayon Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyinin kollektivi Vətən müharibəsinin şəhid leytenantı Sərvan Göyüşovun ailəsinə baş çəkib.



Ağdaş RMİ Göyçay rayon MKS-nin 3 saylı Potu kənd kitabxana filialının əməkdaşları Vətən müharibəsi şəhidi Fərid Nadirovun kənddəki ev-muzeyini və məzarını ziyarət ediblər.

**Hazırladı: N.Məmmədli**

№17 (1890)
2 mart 2022
www.medeniyyet.az

## Əlibaba Balaəhməd oğlu Məmmədov

Azərbaycanın musiqi mədəniyyətinə ağır itki üz vermişdir. Milli muğam sənətinin görkəmli nümayəndəsi, Xalq artisti, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Əlibaba Balaəhməd oğlu Məmmədov 2022-ci il fevralın 25-də ömrünün 93-cü ilində vəfat etmişdir.



Əlibaba Məmmədov 1930-cu il fevralın 5-də Bakının Maştağa kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1956–1960-cı illərdə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində məşhur xanəndə Seyid Şuşinskinin sinfində musiqi təhsili almış, mədəni irsimizin tükənməz xəzinəsi olan muğamın sirlərinə dərindən yiyələnmişdir.

Əmək fəaliyyətinə 1940-cı illərin sonunda Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi başlayan Əlibaba Məmmədov 1968-ci ildə Azərbaycan Dövlət Filarmoniyası nəzdində yaratdığı "Hümayun" xalq çalğı alətləri ansamblına otuz il boyunca rəhbərlik etmişdir. O, eyni zamanda, 1978–1988-ci illərdə "Azkonsert birliyi"nin solisti olmuşdur.

Azərbaycan xanəndəlik məktəbinin layiqli davamçısı Əlibaba Məmmədov milli musiqi xəzinəsini daha da zənginləşdirən sənətkarlarımızdandır. O, hələ gənc yaşlarından Bakının və Abşeron kəndlərinin özünəməxsus muğam mühitində yetkin xanəndə olaraq formalaşmış, klassik muğam ənənələrinin qorunub saxlanmasını dolğun yaradıcılığının başlıca qayəsinə çevirmişdir. Ustad xanəndənin xüsusi məharətlə ifa etdiyi "Rast", "Şur", "Bayatı-Şiraz", "Rahab", "Dəşti" və başqa muğam dəstgahları kamil sənət nümunələri səviyyəsinə yüksəlmiş və musiqi mədəniyyətimizin qızıl fondunda özünə həmişəlik yer tutmuşdur. Geniş repertuarı, məlahətli səsi və bənzərsiz ifa tərzi Əlibaba Məmmədova muğamsevərlərin böyük rəğbətini qazandırmışdır. Sənətkarın müqtədir şairlərimizin şeirlərinə sözlə musiqinin uğurlu vəhdətində bəstələdiyi çox sayda mahnı və təsniflər dillər əzbəri olmuş, dinləyicilərin qəlbində silinməz iz qoymuşdur.

Əlibaba Məmmədov xanəndəlik fəaliyyəti ilə yanaşı, 1963-cü ildən etibarən yarım əsrdən artıq bir dövr ərzində indiki Bakı Musiqi Kollecində, Bülbül adına Orta İxtisas Musiqi Məktəbində və Azərbaycan Milli Konservatoriyasında dərs demiş, muğam sənətinin incəliklərini gənc ifaçılar nəslinə aşılamışdır. Ustad xanəndənin yetirmələri müxtəlif beynəlxalq festivalların və müsabiqələrin qalibi adına layiq görülmüşlər. Muğamla bağlı həyata keçirilən genişmiqyaslı layihə və proqramlarda yaxından iştirakı Əlibaba Məmmədovun muğam ifaçılığı ənənələrinin yaşadılması istiqamətində çoxillik səmərəli fəaliyyətinin ayrılmaz parçasıdır.

Milli musiqi mədəniyyətinin inkişafı sahəsində nailiyyətlərinə görə Əlibaba Məmmədov 2000-ci ildə Azərbaycan Respublikasının ali mükafatlarından olan "Şöhrət", 2010-cu ildə "İstiqlal" və 2020-ci ildə "Şərəf" ordenləri ilə təltif edilmişdir.

Görkəmli xanəndə, mahir pedaqoq, səmimi və təvazökar insan Əlibaba Məmmədovun xatirəsi sənətsevərlərin qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin.**

İlham Əliyev
Mehriban Əliyeva
Əli Əsədov
Sahibə Qafarova
Samir Nuriyev
Eldar Əzizov
Fərəh Əliyeva
Anar Kərimov
Emin Əmrullayev
Zeynəb Xanlarova
Arif Babayev
Alim Qasımov
Səkinə İsmayılova
Mənsum İbrahimov

## Xalq artisti son mənzilə yola salınıb

Milli muğam sənətinin inkişafında böyük xidmətləri olan ustad xanəndə Əlibaba Məmmədov həmçinin bir çox ifaçıların repertuarını bəzəyən mahnı və təsniflərin müəllifi idi. Sənətkarın ən populyar bəstələrindən olan "Yaşa hələ..." mahnısı (söz – Hüseyn Arif) bu misralarla başlayır:

*Səfərdəyəm, səfərimi*
*Vurmamışam başa hələ...*

Uzun bir ömür, xalqın sevgi və rəğbəti ilə müşayiət olunan zəngin sənət həyatı yaşayan Əlibaba Məmmədov fani dünya səfərini başa vurub əbədiyyətə qovuşdu...




Fevralın 26-da 1-ci Fəxri xiyabanda Xalq artisti Əlibaba Məmmədovun dəfn mərasimi keçirilib.

Mərasimdə Mədəniyyət Nazirliyinin əməkdaşları, mədəniyyət, incəsənət xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərhumun məzarı üzərinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva adından əklil qoyulub.

Mədəniyyət naziri Anar Kərimov Əlibaba Məmmədovun yaradıcılığından və muğam sənətinə töhfələrindən söz açıb. Bildirib ki, Ə.Məmmədov 100-dən çox mahnı və təsnif yaradıb, muğamla müasir mahnılar arasında bir vəhdət qurub. Bu mahnılar xalq tərəfindən sevilir.

Diqqətə çatdırılıb ki, müəllimi Seyid Şuşinskidən öyrəndiklərini təkmilləşdirərək gənc nəslə ötürən Əlibaba Məmmədov Azərbaycan xanəndəlik məktəbinin layiqli davamçısı kimi milli musiqi xəzinəsini daha da zənginləşdirmiş böyük sənətkardır. Özünəməxsus ifa üslubu, məlahətli səsi və yüksək səhnə mədəniyyəti ona xalqın sevgisini qazandırıb. Əlibaba Məmmədovun yaradıcılıq yolu gənc xanəndələr nəsli üçün sənət məktəbidir.

Mərasimdə tanınmış sənətçilər Əlibaba Məmmədovla bağlı ürək sözlərini bölüşüblər.

Xalq artisti, professor Ramiz Quliyev deyib: "Əlibaba Məmmədovu gənclik illərimdən, filarmoniyada çıxış etdiyim vaxtlardan tanıyıram. Məşqlər zamanı o, bizə yaxınlaşıb hamımızla görüşür, biz də onu böyük sayıb "əmi" deyə müraciət edərdik. Əlibaba Məmmədov bir sənətçi kimi özündən sonra oxuduğu mahnılarını, lent yazılarını qoyub getdi. O, bununla dövlətə, torpağa olan sadiqliyini nümayiş etdirdi. Əlibaba Məmmədov öz mahnıları ilə insanlara ruh verirdi. Bu yaxınlara qədər ona zəng edib əhvalını soruşurdum. O da cavabında "yaxşı" deyirdi. Bu, bir dostluq nümunəsi, insanlara bəslədiyi sevginin göstəricisi idi. Xalq onun sənətini unutmayacaq, daim yaşadacaq...".

Xalq artisti Alim Qasımov bildirib ki, Əlibaba Məmmədovu bütün xalq sevir. Muğam aləmində Əlibaba Məmmədov gözəl ömür yaşadı, öz çələngini, sənətini bizə təhvil verib getdi.

Xalq artisti Mənsum İbrahimov deyib: "Əlibaba Məmmədov gözəl xanəndə, gözəl pedaqoq, çoxlu sayda mahnının müəllifi idi. Mən hər zaman onun davranışından, insanlara münasibətindən nümunə götürmüşəm. O qədər pozitiv, insanlarda xoş ovqat yaradan insan idi ki… Onun xatirəsi xalqımızın xatirəsindən silinməyəcək. Tək onun Vətən müharibəsində dillər əzbəri olan "Xudayar" təsnifini (ilkin adı "Vətən yaxşıdır" – red.) xatırlatmaq kifayətdir ki, bunu əminliklə deyək...".

## Bizim ustad



2015-ci ildə onun haqqında qələmə aldığım kitabı belə adlandırdım: "Bizim ustad". Doğrudan da, o, əsl ustad idi. Sənətkarlığın, insanlığın, vətəndaşlığın, şəxsiyyətliliyin bütün gözəl keyfiyyətləri onun varlığında, ruhunda cəmləşmişdi. Tanrı bütün yaxşı nə varsa, ondan əsirgəməmişdi. Bir sözlə, hər mənada örnək idi. Odur ki, həmişə onun barəsində sevə-sevə məqalələr yazıb, verilişlər hazırlamışam. İndi isə hərfləri isladan göz yaşlarımla ürəyimdəki xatirələri sözə gətirməyə çalışıram. Nə qədər çətin olsa da, özümü toparlayıb yazmaq, düşüncələrimi sənətsevərlə bölüşmək istəyirəm. Axı, o, hamının sevimlisi idi. Bu yerdə ustadın öz misraları düşür yadıma:

*Xalqı mən sevdiyim üçün,*
*məni xalqım da sevir,*
*Ruhlandırır, qiymət verir,*
*elə bil simuzərəm.*
*Əlibabayam, deyirəm*
*mən də ürək sözlərimi,*
*Qoy öləndən sonra xalqım*
*deməsin bisəmərəm.*

Bəli, xalqını sevən və xalqın sevimlisi ustad Əlibaba Məmmədov öz zəngin yaradıcılığı və səmərəli fəaliyyəti ilə əsil vətəndaşlıq zirvəsinə ucaldı. O, bu zirvəyə addım-addım, pillə-pillə yetişmişdi. Qazandığı biliklər, nail olduğu uğurlar böyük zəhmətin bəhrəsi idi. Bir ömürdə neçə ömrün yükünü daşıdı. 70 il xanəndəlik, 45 il müəllimlik, 30 il "Hümayun" ansamblına rəhbərlik edən ustad 92 ildə 145 ilin zəhmətini çəkdi. Bu illər ərzində çoxlu sayda mahnı və təsniflər yaratdı, neçə-neçə tələbələr yetişdirdi. Gənclərin əlindən tutub həm onlara sənətin sirlərini öyrətdi, onları səhnəyə gətirdi, həm də saysız-hesabsız toy-düyünlərdə neçə-neçə gəncin sevgisini məlahətli səsi ilə rövnəqləndirib, gözəl ailələrin təməlini qoydu. Valideynlər övladlarının toyunu etmək üçün ustadın vaxtını izləyiblər, onunla hesablaşıblar. Afişaları konsert salonlarının qarşısında vurularkən onu dinləməyə gələnlərin sayı-hesabı bilinməyib. Hətta konsertlərində tamaşaçılar ayaqüstə durmağa da razıymış ki, təki onu dinləsinlər. Budur sənətkarın böyüklüyü və böyük sənətkara xalq məhəbbəti. Bütün bu deyilənlərin hamısı "Bizim ustad" kitabında öz əksini tapıb. İndi isə o kitabın hər bir səhifəsi mənim üçün unudulmaz xatirəyə dönüb. Amansız ölüm xoş günlərin dolu düşüncələrini kövrək xatirələrlə əvəzləyib.

*Aldatmasın gənclik səni,*
*O aldadıb çox kimsəni.*
*Əcəl gələrsə, bil, məni,*
*Bir daha görməyəcəksən.*

Ustad, icazə verin bu misralarınızda razılaşmayım. Çünki Siz cismən aramızdan getsəniz də, ruhən həmişə yadımızda və yanımızda olacaqsınız. Axı, sənətkar heç vaxt ölmür. O, yaratdıqları sayəsində əbədi ömür qazanır. Əsl sənətkar xalqın milli sərvətidir. Bu sərvəti xalqla bərabər dövlət də qoruyur. Dəfələrlə onunla olan söhbətlərimizdə mən bu fikirləri söyləyərdim. O isə cavabında – sağ olsun, mənim balam, xalqımız da, dövlətimiz də – deyərdi.

Musiqiçilər ona "əmi" deyə müraciət edirdilər. Mən isə çox vaxt "əmican" deyərdim.

Uzun illər atam, respublikanın Əməkdar artisti Təhmiraz Şirinovun "Hümayun" ansamblında solist olaraq fəaliyyəti bizim ustadla doğmalaşmağımızın təməli idi. Odur ki, o mənə mənəvi övlad kimi sevgi bəsləyirdi. Bir çox yaradıcılıq işlərimin ilk məsləhətçisi idi. Uğurlarımı ustadla bölüşməkdən xüsusi bir rahatlıq tapırdım. Çünki hər bir işə ustadyana real qiymət verirdi, məsləhətlərini, tövsiyələrini söyləyirdi. İstər həyat, istər sənət məsələləri olsun – ona müraciət edən hər kəs xeyir tapar, ondan bəhrələnərdi. Əlibaba Məmmədov özündən əvvəlki ustadlar və ulu muğamlarımızla bağlı dəyərli məlumatlara və mükəmməl bilgiyə malik ustad idi. İndi ruhuna üz tutub deyirəm: Ustad, bu boşluğu kim dolduracaq?

Elə bilirəm ki, bu sualın cavabı olmayacaq. Amma, əvəzində elə ustadın sənət yadigarları onun yerini boş qoymayacaq. Qədirbilən xalqımız və sənətkara dəyər verən dövlətimiz daim Əlibaba Məmmədov irsini yaşadacaq. Bu yerdə möhtərəm Prezidentimiz İlham Əliyevə və ölkəmizin Birinci-vitse prezidenti hörmətli Mehriban xanım Əliyevaya sənətkarın doğmaları, yaxınları, musiqi ictimaiyyəti və sənətsevərlər adından Əlibaba Məmmədov yaradıcılığına olan diqqətə və qayğıya görə sonsuz təşəkkürlərimizi bildiririk.

2015-ci ildə Əlibaba müəllimin həyat və yaradıcılığından bəhs edən "Bizim ustad" kitabını bu cümlə ilə bitirmişdim: "Bütün xidmətlərinə görə bir daha ustada minnətdarlığımızı bildirir, onun sənəti qarşısında baş əyir və deyirik: Sağ olun, Ustad!".

Amma çox təəssüf ki, bu yazı belə yekunlaşacaq: "Ruhunuz şad olsun, Ustad!".

**Səadət Təhmirazqızı**
**Əməkdar mədəniyyət işçisi**

## Qəlblərə təravət gətirən şeirlər müəllifi

Fevralın 28-də Beynəlxalq Muğam Mərkəzində tanınmış şair, tərcüməçi Ələkbər Ziyatayın (1913-1982) xatirəsinə həsr olunmuş tədbir keçirildi.




Gecədə Əməkdar incəsənət xadimi, şair Baba Vəziroğlu, Əməkdar müəllim Ofeliya Babayeva çıxış edərək Ələkbər Ziyatayın yaradıcılığından söz açdılar. Şairin tərcümələri, lirik şeirləri və uşaq ədəbiyyatına verdiyi töhfələr diqqətə çatdırıldı. Bildirildi ki, qəlblərə təravət gətirən şeirlər müəllifi olan şair Azərbaycan ədəbiyyatında öz dəst-xətti ilə seçilir. Yaradıcılığa keçən əsrin 30-cu illərində "İkibaşlı qartal", "Berlində yanğın", "İki cahan" şeirləri ilə gələn şair ədəbiyyatımızı çox dəyərli poetik incilərlə zənginləşdirib. Zahirən ağırtəbiətli, sakit, son dərəcə mehriban, qayğıkeş insan olan Ələkbər Ziyatay könül dincliyini doğma Azərbaycan ədəbiyyatına məhəbbətdə tapıb. Şair dilimizin saflığını, şirinliyini böyük ustalıqla qoruyub, tərənnüm edib, habelə diqqətəlayiq uşaq ədəbiyyatı nümunələri qələmə alıb. O, eyni zamanda Əlişir Nəvai, Homer, Lope de Veqa, A.Puşkin, N.Nekrasov, T.Şevçenko və başqalarının əsərlərini dilimizə çevirməklə bədii tərcümənin qabil ustası kimi tanınıb.

Qeyd olundu ki, Ə.Ziyatay həm də nəğməkar şair kimi şöhrət qazanıb. Onun qəlboxşayan şeir və qəzəllərinə yazılan musiqilər müğənnilərimizin, xanəndələrimizin repertuarında geniş yer tutub. "Qəlbim gəl deyir", "Nə deyim", "Səninləyəm", "Azərbaycanım mənim", "Bakı gecələri", "Sənsən", "Dilim-dilim ol, dilim", "Olmalıydın, olmadın" kimi mahnılar dillər əzbərinə çevrilib, könülləri oxşayıb.

Şairin qızı Pərvin Cəfərova atasının xatirəsinə göstərilən diqqətə görə təşkilatçılara minnətdarlığını bildirdi, xatirələrini bölüşdü.

Daha sonra xatirə gecəsi bədii hissə ilə davam etdi. Aktyorların ifasında şairin şeirləri qiraət olundu. Konsert proqramında Xalq artistləri Gülyanaq Məmmədova, Gülyaz Məmmədova, Əməkdar artist Zakir Əliyev, müğənnilər Rövşən Əziz, Sədəf Budaqova, Səbinə Ərəbli, Nicat Cəfərzadə, Kamilə Nəbiyeva, Günay İmamverdiyeva, Vüsal Hacıyev və Gülyaz Fərəcova şairin sözlərinə yazılmış mahnıları ifa etdilər. İfaçıları Xalq artisti Adil Bağırovun rəhbərliyi ilə Əhsən Dadaşov adına "Xatirə" Xalq çalğı alətləri ansamblı müşayiət edirdi.

**Lalə Azəri**

## Sumqayıt teatrının "Missiya"sı

Sumqayıt Dövlət Dram Teatrında "Missiya" tamaşası nümayiş olunub.



Nümayişdən əvvəl teatrın direktoru, Əməkdar artist Mübariz Həmidov çıxış edərək yaradıcı kollektivin hər zaman taleyüklü mövzularda əsərlərə repertuarda geniş yer verdiyini bildirib.

Tamaşanın süjet xəttini Şuşanın yağıdan azad edilməsi zamanı xüsusi təyinatlı dəstənin zabiti Mübariz Eyvazovun komaya düşməsi və ruhlar aləmində 1992-ci ildə Şuşa ətrafında şəhid olmuş atası ilə görüşməsi təşkil edir. Zabit komadan ayılarkən Ali Baş Komandan İlham Əliyevin "Əziz Şuşa, sən azadsan!" sözlərini və küçədəki sevinc nidalarını eşidir.

Hafiz Ataxanlının qələmə aldığı əsərə teatrın baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov quruluş verib. Quruluşçu rəssam Elşən Sərxanoğludur. Rollarda Əməkdar artist Rauf Ağakişiyev, aktyorlar Oktay Mehdiyev, Şəmistan Süleymanlı, Habil Xanlarov, Dağlar Rüstəmov, Yalçın Səlimov, Aynur Hümmətova, Ceyhun Məhərrəmov, Rövşən Əsgərov, Etibar Əmirov, Rövşad İlyasov və Ramazan Xanlarov çıxış edirlər.

## Qax Dövlət Kukla Teatrının Novruz proqramı

Qax Dövlət Kukla Teatrı Novruz bayramı münasibətilə uşaqlar üçün əyləncəli proqram hazırlayır. Proqramın quruluş müəllifi – teatrın baş rejissoru, Əməkdar artist Yusif Abdurahmanov bildirib ki, məqsəd məktəblilərin yaz tətili günlərinin mənalı keçməsini təmin etməkdir.

Uşaqlar Novruzun personajları olan Kosa və Keçəlin sərgüzəştlərinə, Bahar qızının rəqsinə tamaşa edəcəklər. Sonra Osman Abdullayevin qələmə aldığı "Qoğal" əsəri əsasında hazırlanan tamaşa göstəriləcək. Novruz şənliyi kompozisiyasının rəssamı Mayis Abdullayev, musiqi tərtibatçısı Nicat Fətəliyevdir.

Hazırda teatrda Rəhman Əlizadənin "Tülkünün uçuşu" tamaşası üzərində məşqlər də davam edir.

## "Mən qadınam" – ssenari müsabiqəsi

Azərbaycan Kinematoqrafçılar İttifaqı "Mən qadınam" qısametrajlı bədii film ssenari müsabiqəsi elan edib.

Müsabiqənin məqsədi müasir cəmiyyətdə kataklizmlərin, ilk növbədə, qadın talelərində əks olunduğunu, sosial və iqtisadi problemlərin daha çox qadınlara zərbə vurduğunu, Qarabağ savaşının gətirdiyi bəlaların dəf edilməsi və şanlı Qələbəmizin əldə edilməsində Azərbaycan qadınının rolunu, müstəqillik illərində parlaq qadın kino obrazlarının azlığını nəzərə alaraq, kinematoqrafiyamızda müasir qadın qəhrəmanlarının yaradılmasını təşviq edilməsindən ibarətdir.

Müsabiqəyə təqdim edilən ssenarilərdə müasir Azərbaycan qadınının bütün çalarları ilə dolğun obrazının yaradılması, Şərq və Qərbin qovuşuğunda yaşamanın özəlliklərinin, habelə gender ayrı-seçkiliyi fəsadlarının kino dili ilə ifadəsi arzuolunandır.

Müsabiqəyə iştirak üçün qısametrajlı (52 dəqiqədən çox olmamaqla) bədii film ssenariləri (çap olunmuş variantda 2 nüsxə, şrift Courier New, ölçü 12) qəbul olunur. Müəllif haqqında məlumat (əlaqə telefonu və e-mail ünvanı) da əlavə edilməlidir. Ssenariləri elektron versiyada info@aki.az ünvanına da ("ssenari müsabiqəsi" qeydi ilə) göndərmək olar.

Ssenarinin çap nüsxələri mayın 15-dək Azərbaycan Kinematoqrafçılar İttifaqının ofisinə təqdim edilməlidir. Müsabiqəyə təqdim olunan ssenarinin hüquqları müəllifə məxsus, orijinal və ekranlaşdırılmamış olmalıdır.

Qaliblər diplom və pul mükafatı ilə təltif ediləcək. Qalib ssenarilər istehsalı məqsədəuyğun layihə olaraq Mədəniyyət Nazirliyinə təqdim ediləcək.

Əlavə məlumat üçün (012)5059533 nömrəsinə zəng vurmaq, info@aki.az elektron poçtuna yazaraq cavab almaq olar.

# “Şuşa İli” ilə bağlı Tədbirlər Planı təsdiq edilib

“Şuşa İli” ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı imzalanıb. Tədbirlər Planı 2022-ci ilin “Şuşa İli” elan edilməsi haqqında” ölkə başçısının 2022-ci il 5 yanvar tarixli sərəncamının icrasını təmin etmək məqsədilə təsdiq edilib.

Baş nazir Əli Əsədovun fevralın 25-də imzaladığı sərəncamla təsdiq olunan Tədbirlər Planı beş bölmədən ibarətdir: Mədəni-kütləvi və idman tədbirləri; Elmi nəşrlərin, audiovizual və çap materiallarının hazırlanması; “Şuşa İli”nin beynəlxalq səviyyədə təbliği ilə əlaqədar tədbirlər; Tarixi-mədəni abidələrin bərpası, ekologiya və turizm üzrə tədbirlər; “Şuşa İli” ilə əlaqədar xatirə materiallarının və internet resurslarının hazırlanması.

Ümumilikdə il ərzində 35 bənd üzrə tədbirlərin keçirilməsi nəzərdə tutulur. Tədbirlər Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Dövlət Turizm Agentliyi və digər dövlət orqanları, Heydər Əliyev Fondu, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Yazıçılar Birliyi, “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC və başqa qurumların təşkilatçılığı və iştirakı ilə həyata keçiriləcək.

| Sıra №-si | Tədbirin adı | İcra müddəti | İcraçı orqanlar |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **Mədəni-kütləvi və idman tədbirləri** | | | |
| 1. | “Xarıbülbül” beynəlxalq folklor festivalının keçirilməsi | 2022-ci il may | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 2. | “Vaqif Poeziya Günləri”nin keçirilməsi | 2022-ci il iyul | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Azərbaycan Yazıçılar Birliyi |
| 3. | “Şuşanın 4 fəsli” (“4 seasons of Shusha”) adlı beynəlxalq fotoqrafiya festivalının keçirilməsi | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu |
| 4. | “Şuşa 2022” beynəlxalq incəsənət festivalının keçirilməsi | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu |
| 5. | “Şuşa yaradıcılıq emalatxanası” layihəsinin həyata keçirilməsi | 2022-ci il iyul | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 6. | “Televiziya Muğam Müsabiqəsi 2022”nin final mərhələsinin və qaliblərin Qala-konsertinin Şuşa şəhərində keçirilməsi | 2022-ci il iyul-avqust | Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 7. | Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunmuş silsilə tədbirlərin keçirilməsi | 2022-ci il avqust | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Azərbaycan Yazıçılar Birliyi |
| 8. | Yerli və xarici incəsənət və ədəbiyyat xadimlərinin, KİV nümayəndələrinin, təhsil müəssisələri kollektivlərinin, blogerlərin, Azərbaycanda keçiriləcək müxtəlif beynəlxalq tədbirlərin iştirakçılarının Şuşa şəhərinə səfərlərinin təşkili, Şuşada yay məktəblərinin, gənclər və könüllülər düşərgələrinin keçirilməsi | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Azərbaycan Gənclər Fondu |
| 9. | “Şuşada bir gün”. Respublika fənn olimpiadaları qaliblərinin, ümumi təhsil müəssisələrinin şagirdlərinin Şuşa şəhərinə səfərlərinin təşkili | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Təhsil Nazirliyi |
| 10. | Məktəblilər arasında “Könlüm keçir Qarabağdan” adlı respublika incəsənət festival-müsabiqəsinin yekun mərhələsinin Şuşa şəhərində keçirilməsi | 2022-ci il iyun | Azərbaycan Respublikasının Təhsil Nazirliyi |
| 11. | “Şuşa İli”nə həsr edilmiş və Şuşada keçirilməsi nəzərdə tutulan layihələr üzrə qrant müsabiqələrinin keçirilməsi | 2022-ci il ərzində | Azərbaycan Gənclər Fondu, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi |
| 12. | “Şuşa İli”nə həsr olunmuş çövkən oyunu üzrə turnirin keçirilməsi | 2022-ci il aprel-avqust | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Azərbaycan Atçılıq Federasiyası |
| 13. | Şuşa beynəlxalq velosiped turnirinin keçirilməsi | 2022-ci il may-oktyabr | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Azərbaycan Velosiped İdmanı Federasiyası |
| 14. | “Wonderland-Azerbaijan 2022” beynəlxalq skaut düşərgəsinin keçirilməsi | 2022-ci il avqust | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 15. | Xurşidbanu Natəvanın anadan olmasının 190 illiyinə həsr olunmuş şahmat turnirinin keçirilməsi | 2022-ci il oktyabr-noyabr | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Azərbaycan Şahmat Federasiyası |
| 16. | “İşıq festivalı. Şuşa” adlı audiovizual layihənin təşkili | 2022-ci il oktyabr | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi |
| **Elmi nəşrlərin, audiovizual və çap materiallarının hazırlanması** | | | |
| 17. | Şuşaya həsr edilmiş ensiklopediyanın nəşrə hazırlanması və müxtəlif dillərə tərcümə edilməsi | 2022-2023-cü illər ərzində | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası |
| 18. | Yerli və xarici mütəxəssislərin iştirakı ilə Şuşaya həsr olunmuş elmi tədqiqat işlərinin aparılması, məqalə, elmi əsər, monoqrafiya, antologiyaların və s. nəşr olunması | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Gənclər Fondu |
| 19. | Azərbaycan Dövlət Film Fondunda saxlanılan Şuşa ilə bağlı film və çəkilişlərin bərpası, onların nümayiş etdirilməsi | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 20. | Şuşaya həsr olunmuş audiovizual və çap materiallarının, promo məhsulların, suvenirlərin hazırlanması | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Azərbaycan Gənclər Fondu |
| 21. | Yerli və xarici KİV-lərdə Şuşa şəhərinə və Şuşa İli çərçivəsində keçirilən tədbirlərə dair məlumatların yayılması, verilişlərin hazırlanması | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, AZƏRTAC, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 22. | “Şuşa saatı” TV/radio verilişinin hazırlanması və yayımlanması | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| **“Şuşa İli”nin beynəlxalq səviyyədə təbliği ilə əlaqədar tədbirlər** | | | |
| 23. | Qoşulmama Hərəkatına üzv olan ölkə şəhərlərinin “Şuşa Assambleyası”nın keçirilməsi | 2022-ci il iyul-noyabr | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 24. | “Dünya məşhurları Şuşada” adlı layihənin həyata keçirilməsi | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 25. | Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının birgə təşkilatçılığı ilə “Youth Art Camp Shusha” adlı beynəlxalq layihənin təşkili | 2022-ci il iyul-dekabr | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi |
| 26. | Şuşa şəhərinin müxtəlif ölkələrin şəhərləri ilə qardaşlaşmış şəhər statusu alması ilə bağlı müvafiq işlərin həyata keçirilməsi | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi |
| 27. | Azərbaycanda və xarici ölkələrdə, o cümlədən beynəlxalq təşkilatların mənzil qərargahlarında “Şuşa İli”nə həsr olunmuş tədbirlərin, elmi konfrans, simpoziumların keçirilməsi və təbliğat xarakterli işlərin görülməsi | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, Azərbaycan Gənclər Fondu, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 28. | UNESCO Assosiativ Məktəblər Şəbəkəsinə (ASPnet) üzv olan məktəblərin, “Qardaşlaşmış məktəblər” təşəbbüsünə qoşulmuş yerli və xarici ümumtəhsil müəssisələrinin “Şuşa İli” ilə bağlı birgə tədbirlərinin keçirilməsi | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi |
| 29. | “Şuşa 270 il” adlı sənədli filmin çəkilməsi | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi |
| **Tarixi-mədəni abidələrin bərpası, ekologiya və turizm üzrə tədbirlər** | | | |
| 30. | Şuşa şəhərinin investisiya potensialının tanıdılması məqsədilə yerli və xarici investorların iştirakı ilə tədbirlərin təşkili (Karabakh İnvestment Roadshow) | 2022-ci il ərzində | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 31. | Şuşa ətrafında “Yaşıl Qurşaq” yaratmaq məqsədilə ağacəkmə aksiyalarının təşkili və meşə bərpa işlərinin aparılması | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 32. | “Şuşa 270”. Şuşa şəhəri və ətraf ərazilər üçün turizm məhsullarının yaradılması | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| **“Şuşa İli” ilə əlaqədar xatirə materiallarının və internet resurslarının hazırlanması** | | | |
| 33. | Şuşanın 270 illiyi münasibətilə “Xatirə nişanı”nın təsis edilməsi | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi |
| 34. | “Şuşa 270 il” mövzusunda 3 (üç) markadan ibarət poçt markası blokunun və 3 (üç) növdə markalı poçt zərflərinin, eləcə də “Xurşidbanu Natəvan 190 il” mövzusunda poçt markasının dövriyyəyə buraxılması | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| 35. | “Azərbaycanın mədəniyyət paytaxtı-Şuşa” portalının yaradılması | 2022-ci il ərzində | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |

## “Bitməyən kədər...”



Fevralın 26-da Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində “Xocalı – 30. Bitməyən kədər” adlı tədbir keçirilib.

Tədbirin aparıcısı – nəzəriyyə şöbəsinin müəllimi, musiqişünas Pərvin Səfərli Xocalı faciəsi, soyqırımının dünyada tanıdılması, “Xocalıya ədalət!” kampaniyası çərçivəsində ərsəyə gələn sənət əsərləri, o cümlədən litvalı jurnalist Riçardas Lapaidisin bir çox ölkələrdə nümayiş olunan “Sonsuz dəhliz” filmi, fransız bəstəkarı Pierre Thilloyun faciə qurbanlarına həsr etdiyi “Xocalı 613” əsəri haqqında danışıb.

“Xocalı 613” əsərinin ilk dəfə Azərbaycan Dövlət Akademik Filarmoniyasında təqdimatında ifaçı (klarnet) kimi iştirak etmiş Mərkəzi İncəsənət Məktəbinin direktoru, Əməkdar artist, dosent Əziz Qarayusifli ilk konsertlə bağlı təəssüratını bölüşüb.

Sonra məktəbin müəllim və şagirdləri faciəyə həsr olunmuş musiqi nömrələri və xoreoqrafik kompozisiya təqdim ediblər. İfalar faciəyə həsr olunmuş videoslaydlarla müşayiət olunub. Məktəbdə Xocalı soyqırımına həsr edilmiş rəsm sərgisi təşkil edilib.

## Bakı Xoreoqrafiya Akademiyasında anım tədbiri



Bakı Xoreoqrafiya Akademiyasında (BXA) Xocalı faciəsinin 30-cu ildönümünə həsr olunmuş tədbir keçirilib.

BXA-nın tam orta təhsil pilləsinin direktoru Tahir Eynullayev bildirib ki, 1992-ci il fevralın 26-na keçən gecə erməni hərbi birləşmələri tərəfindən Xocalıda törədilmiş soyqırımı Azərbaycan tarixinin ən qanlı səhifələrindən biridir və yaddaşlardan heç zaman silinməyəcək.

Orta ixtisas təhsil pilləsinin I və II kurs tələbələri həmin qanlı gecədə erməni təcavüzkarlarının törətdiyi insanlıq əleyhinə cinayətin dəhşətlərindən bəhs ediblər.

Tədbirdə Xocalı faciəsindən bəhs edən kadrlar və BXA tam orta təhsil pilləsi şagirdlərinin soyqırımına həsr edilmiş rəsmləri nümayiş olunub. İştirakçılar akademiyanın kitabxana-informasiya mərkəzi tərəfindən təşkil edilmiş sərgi ilə də tanış olublar.

## Unudulmayan faciə

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Xocalı faciəsinin 30-cu ildönümünə həsr olunmuş “Unudulmayan faciə – Xocalı qırğını” adlı anım tədbiri təşkil edilib.

Tədbirdə kitabxananın direktoru Aslan Cəfərov, elmi işlər üzrə direktor müavini Xalidə Musayeva, şöbə müdirləri Qənirə Mustafayeva, Nübar Cəlilova və başqa çıxış edənlər 30 il əvvəl Xocalıda dinc sakinlərə qarşı törədilən qırğının eyni zamanda bəşəriyyətə qarşı qanlı cinayət olduğunu vurğulayıb, qan yaddaşımızın bu acı səhifəsinə həsr olunmuş ədəbiyyatın xüsusilə gənclər arasında təbliğinin vacibliyindən bəhs ediblər.



Kitabxananın əməkdaşı Sevda Rəhimova “Xocalı faciəsinə dair ədəbiyyatın kitabxanalarda təbliği” adlı metodiki vəsait və “Xocalı faciəsi xalqımızın qan yaddaşıdır” adlı məlumat bülleteni haqqında danışıb.

Xocalı faciəsinin 30-cu ildönümü ilə bağlı kitab sərgisinə baxış keçirilib, mövzu üzrə hazırlanan virtual sərgi, Azərbaycan və ingilis dilində videoçarxlar nümayiş olunub. Sözügedən materiallar kitabxananın sosial şəbəkə səhifələrində də paylaşılıb.

## Xocalı şəhidləri yad olunub



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan F.Əmirov adına 6 nömrəli onbirillik İncəsənət məktəbində Xocalı şəhidləri yad edilib.

Məktəbin müəllimi Aytən Manafova otuz il öncə tariximizə və qan yaddaşımıza yazılmış faciə haqqında danışıb.

Tədbirin bədii hissəsində məktəbin müəllimlərdən ibarət simli kvartetinin ifasında T.Albinoninin “Adajio” və İ.S.Baxın “Ariya”sı səslənib.

Sonda məktəbin direktoru, professor Adilə Yusifova çıxış edərək otuzillik işğaldan sonra azad edilən torpaqlarımızda bərpa-quruculuq işlərindən, Qarabağın yeni növrağından söz açıb.

***



Baş idarənin 24 nömrəli onbirillik Musiqi məktəbində də Xocalı faciəsinin 30-cu ildönümünə həsr olunmuş tədbir keçirilib.

Məktəbin nəzəriyyə şöbəsinin müəllimi Şəfa Səfərova Xocalı hadisələri zamanı xalqımızın başına gətirilən müsibətlərdən danışıb. Xocalı faciəsini əks etdirən videoçarx nümayiş olunub.

Anım tədbirində məktəbin müəllim və şagirdlərinin ifasında Azərbaycan və dünya bəstəkarlarının əsərləri, muğamlarımız təqdim edilib.

## Suqovuşanın azad olunduğu gün şəhadətə qovuşdu...

Ulularımız Vətən anadır, deyiblər. Onu qorumaq isə hər birimizin borcudur. Bunu hər bir Vətən övladı anlayır və məqamı yetişəndə öz borcunu yerinə yetirir. Şəhid Anar Cəfərov da ana yurdun dar günündə onun səsinə səs verən igidlərdən biri idi...



Anar Eyvaz oğlu Cəfərov 1977-ci il dekabrın 19-da Ağcabədi şəhərində anadan olub. Şəhər 12 saylı tam orta məktəbdə təhsil aldıqdan sonra bir müddət sürücü işləyib və şəxsi təsərrüfatla məşğul olub. Daha sonra Vətən qarşısında borcunu yerinə yetirib. Əsgərliyini başa vursa da, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi Vətənə xidmətini davam etdirib. Xüsusi hərbi kurs bitirərək həmlə taborunda bölüyün baş tuşlayıcı minaatanı təyin olunub. Daha sonra Mingəçevir və Tərtərdə N saylı hərbi hissələrdə xidmət edib.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin ilk günündən Anar da ön cəbhədə yerini alır. Tərtər-Ağdərə-Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərir. Neçə-neçə düşməni məhv edir, strateji yüksəkliklərin düşməndən təmizlənməsində böyük hünər ortaya qoyur. Oktyabrın 3-də Suqovuşan istiqamətində gedən ağır döyüşlərin birində şəhidlik zirvəsinə ucalır.

Şəhidin həyat yoldaşı Samirə Xuduyeva qeyd edir ki, Anarın qardaşları da hərb yolunu seçiblər: "Onun böyük qardaşı ehtiyatda olan mayordur. Kiçik qardaşı isə hazırda Xüsusi Təyinatlı Qüvvələrin zabitidir. Anar vətənpərvər insan idi. Ailəsinə, övladlarına qarşı hər zaman qayğıkeş olub. Müharibədən əvvəl təlimlərdə fəal iştirak edirdi. Onunla son görüşümüz sentyabrın 26-da oldu. Vətən müharibəsi zamanı imkan tapdıqca zəng edirdi. Oktyabrın 3-də – Suqovuşanın azad olunduğu gün Anara zəng etdim. Orada olduğunu bilirdim. Amma zəngimə cavab vermədi. Axşamüstü böyük qardaşı İftixar evə gələndə Anarın şəhid olduğunu anladım...".

2008-ci ildə ailə həyatı quran Anarın Rəhman və Eyvaz adlı iki oğul övladı Vətənə əmanət qalıb. Onlar da vətənpərvər ruhda böyüyür, atalarının yolunu davam etdirəcəklərini söyləyirlər.

Anar Cəfərov oktyabrın 4-də Ağcabədi rayon Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Allah rəhmət eləsin.

**Nurəddin**

## Sankt-Peterburqda azərbaycanlı tarixçi alimin məruzəsi dinlənilib

"QƏSR" Mədəni İrsi və Tarixi Abidələri Qoruyaq İctimai Birliyi idarə heyətinin üzvü, Beynəlxalq Muzeylər Şurası (İCOM) Azərbaycanın Milli Komitəsinin və İCOMAM (İCOM-un hərbi muzeylər və silah kolleksiyaları üzrə ixtisaslaşmış komitəsi) İdarə heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov Sankt-Peterburq şəhərində Dövlət Ermitajının və Rusiya Federasiyası Prezidenti yanında Heraldika Şurasının təşkilatçılığı ilə keçirilən hibrid konfransda (18-20 fevral) əyani olaraq iştirak edib.



İmperator I Pyotr tərəfindən Heroldmeyster kontorunun yaradılmasının 300 illiyinə və Rusiya Federasiyasında heraldika xidmətinin bərpasının 30 illiyinə həsr olunmuş konfransda P.Gözəlovun "1919-1922-ci illərin inqilabı bayraqlarında İslam və sovet simvolları" mövzusunda məruzəsi dinlənilib. Konfransa qatılan 48 məruzəçi sırasında Pərvin Gözəlov xarici ölkədən dəvət olunan yeganə iştirakçı olub.

Tədbirin açılışında Dövlət Ermitajının baş direktoru Mixail Piotrovski onlayn olaraq iştirakçıları salamlayıb və konfransın işində uğurlar arzulayıb. RF dövlət heroldmeysteri Georgi Vilinbaxov konfrans iştirakçılarına Prezident Vladimir Putinin və Rusiya Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkinin təbrik məktublarını oxuyub.

Konfransda heraldika sahəsində dövlət siyasətinin konsepsiyası, bu sahədə hüquqi məsələlər və digər mövzularda məruzələr dinlənilib, müzakirələr aparılıb.

P.Gözəlov məruzəsində 1919-1922-ci illərdə keçmiş Rusiya imperiyası ərazisində gedən inqilabi proseslər və sovetləşmə dövründə istifadə edilən bayraqlardan bəhs edərkən onların üzərində xalqların dini mənsubluğunu və dövlət quruluşunun atributlarını təcəssüm etdirən rəmzlərdən (aypara, beşguşəli ulduz) də ətraflı söhbət açıb. Məruzəçi iştirakçıların suallarını cavablandırıb.

Konfrans çərçivəsində iştirakçılar B.N.Yeltsin adına Prezident Kitabxanasına ekskursiya ediblər.

P.Gözəlov Sankt-Peterburqda Artilleriya, mühəndis və rabitə qoşunları Hərbi Tarix Muzeyinin direktoru V.M.Krılovla görüşüb. Xatırladaq ki, azərbaycanlı alim tərəfindən 2015-ci ildə bu muzeyin fondunda XIX əsrdə çar Rusiyasının ilhaq etdiyi Azərbaycan xanlıqlarından Naxçıvan xanlığına məxsus dövlət və döyüş bayraqları aşkar edilib.

# Üzünə baxmağa üzüm gəlmədi...

### "Xocalı" abidəsi önündə düşüncələr

Yolum oradan, o başdan-başa məğrur və kədərli qadının yanından tez-tez düşür. Hər dəfə də istəyirəm ki, bu daş bədənin içindəki ürəyin atışlarını duyum. Ona onu anladığımı hiss "etdirim", içimdəki dərin və izahsız boşluqda illərdir necə çapaladığımın izahını verim. Analar üçün ən dəhşətli, ən dözülməz ağrıdır övlad itkisi...




O postament üzərindəki – qucağında öldürülmüş övladı, üzündə bəşəri kədər olan "Xocalı ana" – daşdan yonulmuş olsa da, ruhu, müqəddəs və əzəmətli ruhu dipdiridir. O, qətiyyən adi heykəl deyil. Diqqətlə fikir vermisinizsə, Bakıdakı Xocalı prospektindəki bu abidə-qadın, əslində, ruh olaraq da orada – bir gecədə yağmalanan, qan ilə boğulan Xocalıda, Qarabağdakı Xocalıda qalıb. Sənin, mənim eşitdiyim dilsiz harayı, səssiz naləsi də qulaqlarımıza oradan – Xocalının özündən gəlir. Sinəsinə sıxdığı körpəsini düz 30 ildir ki, buraxmır. Əslində, mələk olub uçduğunu, bədəninin buz kəsildiyini hamımızdan tez özü anlayır. Amma yenə də buraxmır. Bərk-bərk saxlayır, qoruyur. İmdad edə-edə Xocalını, bütün Qarabağı el-el gəzir, daş-daş qucaqlayıb torpaq-torpaq göz yaşları ilə suvarır...

İllərdir Xocalı faciəsini əks etdirən kadrlara, o məşum gecə haqqında şahid ifadələrinə axıracan baxa, dinləyə bilmirəm. Qəzəb qarışıq ağrı bütün ruhuma hopur. Düşmənin vurduğu bu yaranın ömrümüzün sonunadək sağalmayacağını dərk edəndə taqətim tükənir. Nə bilim, bəlkə də bu, itirilmiş uşaqlığımızın, nisgilli gəncliyimizin, həm də viran qalmış yurd yerlərimizin can verə-verə çəkdiyimiz yükündür.

Xocalı faciəsi, bu amansız qətliam həm də yaddaş yaramız, düşməni, onun əsl simasını, niyyətini və heç vaxt bitib-tükənməyəcək nifrətini əbədi hiss edəcəyimiz ağrımızdır. Özü də bu, təkcə bizim yox, həm də lazım gələndə qulağı kar, gözü kor, dili lal olan dünya ilə qiyamətə qədər gedib çıxacaq haqq-hesabımızdır. Axı XX əsrin ən böyük faciələrindən olan Xocalı soyqırımı millətindən asılı olmayaraq bütün insanlığın üz qarası, utancıdır.

Bəli, mənim Xocalı anam 30 ildir ki, laylasını ağıya, həsrətini vüsala, kədərini ümidə calayıb gözləyir. Əslində, son iki ildə o əzəmətli qadınla sözsüz dialoqumuzda xeyli dəyişiklik var. Ən böyük səbəb də Zəfərimizdir. Əzəmətli qadının qucağındakı körpəsindən əvvəl və sonra doğulan Vətən övladları Qarabağda Qələbə qazandılar. Mənfur düşmənin izləri Qarabağımızdan təmizləndi, təmizlənir, təmizlənəcək. Silahlar sussa da, mübarizəmiz davam edir. Şübhəsiz ki, hər bir azərbaycanlının ürəyi ilə dili arasındakı yolda nidaya çevrilib Xocalı. Bütün bunlara rəğmən onunla son görüşümüzdə – fevralın 25-də də yenə "göz-gözə gələ" bilmədik, bilmədim. Cəsarətim çatmadı, belim dikəlmədi, göz qapaqlarım qalxmadı...

Saat 17:50-dir. Heykəlin bir neçə metrliyi lentlənib. Sabahkı anım mərasimi üçün hazırlıq görülür. Xeyli sayda insan da abidə önündə təzim üçün növbədədir. Tez-tez "Əziz paytaxt sakinləri, tədbir ilə əlaqədar abidə ətrafında iş aparılır, xahiş edirik, sabah gəlin" sözlərinə kimsə məhəl qoymur. Batmaqda olan günəşin oğrun şölələrində üzü aydınlanan anaya sanki yaxınlaşıb təsəlli vermək üçün gözləyirlər. Bir növ həm özlərini, həm də onu bu yolla ovutmağa çalışırlar. Onların arasında valideynlərinin, baba-nənələrinin əllərindən tutub irəli dartan uşaqlar daha çox idi. Balaca əllərini havaya qaldırıb şəhadət barmaqları ilə ananın qoynundakı uşağı göstərib fasiləvermədən suallar yağdırır, izahlardan mütəəssir olub kədərlənirdilər. Bunu sezmək o qədər də çətin deyildi; küskün dodaqlar büzüşür, parıldayan gözlərdə yaşlar gilələnir, baxışlar yerə dikilirdi.

Xəfif külək (son bir neçə ildə hava ilk dəfə idi ki, bu qədər mülayim idi) "Yaxşı, ziyarətçiləri buraxın, işimizə sonra davam edərik" sözlərini qulaqlara pıçıldadı. Onlarla insan onun hüzuruna – heykəl qadının qarşısına tələsdi. Qardan, şaxtadan Xocalıda donan ayaqlarının əvəzinə Bakıdakı heykəlin ətrafını gül-çiçəyə qərq etdilər. Ehtiram, sevgi, kədər və düşmənə heç vaxt azalmayacaq nifrətin işartıları ilə...

Uşaqların aramsız, bəzən də cavabsız sualları səngimək bilmirdi. Məsələn, "Baba, o uşaq indi nə boydadı?", "Baba, onlar Qarabağa qayıtdılar?"... Köks ötürən baba nə isə cavab tapmışdı, deyəsən. Dillənmək istəyəndə başqa bir uşağın onun növbəsinə bildirdiyi "O heykəldir, necə böyüsün" sual-iradına, çətinliklə də olsa, gülümsədi.

Onun arxasınca saçları bəlkə də məhz 30 il öncə ağarmış yaşlı qadın çətinliklə addımlayırdı. Çiyninə düşən şalını başına çəkə-çəkə ahəstə-ahəstə laylalar, əzizləmələr deyirdi. Xüsusən "Xocalım bir gül idi..." sözləri. Bu yaşlı və ağrılı qadın ağır-ağır başını qaldırdı, heykəl qadına və körpəsinə uzun-uzadı tamaşa elədi. Sonra da əlini sinəsinə vura-vura "Anan ölsün, ay gəlin" deyib hıçqırdı. Onun 4-5 nəfərlik gənc qrupun yaşlarına xas maraqla "Siz də Xocalıdansız?" sualına cavabını yəqin ki, heç vaxt unutmayacam. Batıq səsi ilə "Bala itirən bütün anaları tanıyıram, ay qızım!" deyib əlindəki bir topa nərgizi qalaqlanmış çiçəklərin üzərinə qoydu.

Heykəlin ətrafını güllərlə bəzəyən, 26 fevral mərasimi üçün hər detalı xırdalığı ilə müzakirə edən təşkilatçıların "İcazənizlə, işimizə davam edək, axşam düşür axı" xəbərdarlığından sonra addımlar bir az da yeyinləşdi. Fevralın 26-na keçən gecənin qaranlığı düşdü sanki. Qəribə təsvir idi. Nə abidənin sağ və solundakı əsas yoldan ötən maşınların uğultusu, nə də piyadaların müvəqqəti keçidini təşkil edən polislərin səsucaldıcılarından qopan gurultu parkın ortasında təkbaşına dayanan səssiz qadının səsini "batıra" bilmədi.

Kədərli və vahiməli qaranlığı küçə işıqları qovdu. Prospekt və park gur işıqlarla aydınlandı. Bu an, yalnız bu an içi mən qarışıq hamının gözündəki inam və ümidin şölələri parıldadı. Xocalı adlı yara, nisgil, həsrət, ağrı və hüznü unutmağa, unudulmağa qoymayan qələbələrin, xoş müjdəli sabahların, Qarabağı başdan-başa gəzib-dolaşmağın sarsılmaz ümidi...

**Həmidə Nizamiqızı**

# Milli və xəlqiliyi ilə sevilən yazıçı

Ötən əsrin 60-cı illərində ədəbiyyata gələn, maraqlı əsərləri ilə diqqətçəkən və sevilən sənətkarlarımızdan biri tarixi romanlar müəllifi, ssenarist Fərman Kərimzadə olub. Görkəmli yazıçı dolğun yaradıcılıq fəaliyyəti dövründə qələmə aldığı "Son eksponat", "Toy toğlusu", "Mis qazan", "Talada", "Ümid", "Xınalı" hekayələri, "Xallı maral", "Toy dəvətnaməsi" povestləri, daha çox isə "Qarlı aşırım", "Xudafərin körpüsü", "Çaldıran döyüşü" kimi romanları ilə tanınıb. Sevilən yazıçının anadan olmasının 85-ci ildönümü münasibətilə yada salırıq.



Fərman İsmayıl oğlu Kərimzadə 3 mart 1937-ci ildə Qərbi Azərbaycanın Vedi rayonunun Böyük Vedi kəndində dünyaya göz açıb. Şərəfli tarixi, zəngin ənənələri olan bu qədim türk eli 1949-cu ildə məkrli erməni millətçilərinin haqsızlığı ilə üz-üzə qalır. Bu yurdun əzəli sakinləri doğma yurd-yuvalarından deportasiya edilirlər. 12 yaşlı Fərmanın ailəsi də elindən ayrı düşür. Onlar Beyləqan rayonunda məskunlaşırlar...

O, erkən çağlardan təsviri sənətə maraq göstərir. Rayonun Şahsevən kənd orta məktəbini uğurla başa vurduqdan sonra Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə qəbul olunur. Təhsilini bitirib təyinatla İsmayıllı və Beyləqan rayonlarında pedaqoji fəaliyyət göstərir. Asudə vaxtlarında yaradıcılığa da vaxt ayırır. Dövri mətbuatda məqalələri dərc edilir.

Pedaqoji fəaliyyətini dayandıran Fərman Kərimzadə Beyləqanda nəşr olunan "Yüksəliş" qəzeti redaksiyasında işə düzəlir. Ədəbi işçi, şöbə müdiri və məsul katib işləyir. Sonra Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunun Ssenari fakültəsində təhsil alır. Vətənə döndükdən sonra Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində tərcüməçi, böyük redaktor, "Abşeron", "Ədəbiyyat və incəsənət" qəzetləri redaksiyasında ədəbi işçi, şöbə müdiri, C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasında kollegiya üzvü, "Ədəbiyyat və incəsənət" qəzetinin xüsusi müxbiri işləyir.

O, ədəbi aləmə 1958-ci ildə qələmə aldığı "41 nömrəli ayaqqabı" hekayəsi ilə gəlib. Daha sonra II Dünya müharibəsindən bəhs edən "Son eksponat", "Toy toğlusu" hekayələrini yazıb. "Son eksponat" hekayəsində ana müharibədə qəhrəmanlıqla həlak olmuş oğlunun muzeydəki köynəyini – öz əli ilə toxuduğu köynəyi qorumağa çalışır...



Yazıçı "Xallı maral", "Toy dəvətnaməsi" povestlərində, "Ölülər yalan danışmır", "Mis qazan", "Talada", "Ümid", "Xınalıq" və başqa hekayələrində müxtəlif xarakterli, fərqli taleli obrazların mənəvi aləminə işıq tutur. Ədib kəskin və düşündürücü ifadə vasitələri ilə xalq malına kəc baxanları, israfçıları hədəfə alır. Tüfeyli və məşşan yaşayış tərzini ifşa edir.

Fərman Kərimzadənin 1967-ci ildə işıq üzü görən "Qarlı aşırım" romanı ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanır, müəllifə şöhrət qazandırır. Araşdırmalarda qeyd edilir ki, əsər əsasında müəllifin ssenarisi ilə rejissor Kamil Rüstəmbəyov 1971-ci ildə "Axırıncı aşırım" filmini lentə alıb. Film ekranlara çıxandan sonra yazıçı təhdidlərlə üzləşir. Qəmlonun mənfi obrazda verilməsi qəbul edilmir. Yeri gəlmişkən, həmin dövrdə müəllifin iştirakı ilə keçirilən görüş-diskussiyaların birində biz də iştirak edirdik. F.Kərimzadə söhbət əsnasında artıq-əskik heç nə yazmadığını, Qəmlo necə olubsa, elə də qələmə aldığını bildirdi: "Kərbəlayı İsmayıl, Qəmlo xalqımızın namuslu övladları olub... Əsəri onlar itib-batmasın deyə yazmışam...".

"Qarlı aşırım" romanı erməni millətçiləri tərəfindən də etirazla qarşılanır. Əslində, əsərdə erməni məsələsindən söhbət getmir. Amma ermənilər Kərbəlayı İsmayıl, Abbasqulu bəy və Qəmlonun xalqımızın qanına susamış daşnaklara qarşı döyüşdüyünü bildirirdilər.

Azərbaycan kinosunun diqqətəlayiq nümunələrindən hesab edilən "Axırıncı aşırım" filmində əsas rollarda Həsən Məmmədov, Adil İsgəndərov, Məlik Dadaşov, Hamlet Xanızadə, Həsənağa Turabov, Şəmsi Bədəlbəyli, Tamilla Rüstəmova, Şahmar Ələkbərov və digər tanınmış sənətkarlar çəkilib. Film 1972-ci ildə Tiflisdə keçirilən V Ümumittifaq kinofestivalında iştirak edir. Adil İsgəndərov (Kərbəlayı) və Həsən Məmmədov (Abbasqulu bəy) "ən yaxşı kişi rolu"na görə mükafatına layiq görülürlər.

Görkəmli yazıçının milli və xəlqiliyi ilə seçilən əsərləri hər bir oxucuda maraq, qürur doğurur. Azərbaycan xalqının başına gətirilən bəlalara kəskin münasibət bildirən müəllif həm də cəsarət örnəyi göstərib. "Axırıncı aşırım" filmində Kərbəlayı İsmayılın dili ilə deyilən "Ə, nə hökumət, hansı hökumət?! Mən belə hökumət tanımıram!" sözləri sovet rejiminin çox sərt vaxtlarında – 1967-ci ildə yazılması bunun bariz nümunəsidir.

Müəllifin bu gün də maraqla oxunan "Xudafərin körpüsü", "Çaldıran döyüşü" tarixi romanları, digər povest və hekayələri də milli tarixə işıq salır.

Azərbaycan tarixini, milli mübarizlərimizi bizə yaxından tanıdan və sevdirən Fərman Kərimzadə 17 mart 1989-cu ildə, 52 yaşında vəfat edib.

**Savalan Fərəcov**

# “Mənə ruhən yaxın olan ifaçılarla əməkdaşlıqdan çox məmnunam”

Fevralın 28-də tanınmış bəstəkar, estrada sənətimizdə öz dəst-xətti ilə seçilən populyar mahnıların müəllifi, Xalq artisti Eldar Mansurovun 70 yaşı tamam oldu.

Musiqi mədəniyyətimizdə silinməz iz qoyan Mansurovlar nəslinin layiqli davamçısı olan bəstəkar hər zaman öz şəcərəsi və doğulduğu İçərişəhərlə fəxr edib. Azərbaycan tar ifaçılığı sənətinin inkişafına böyük töhfələr bəxş etmiş Bəhram Mansurovun ailəsində doğulan Eldar Mansurov Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbində, daha sonra Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) Bəstəkarlıq şöbəsində (Cövdət Hacıyev və Arif Məlikovun sinfi) təhsil alıb.

Yubiley günündə sənətkarla telefon əlaqəsi saxlayıb qəzetimizin kollektivi adından təbriklərimizi çatdırdıq. Eldar müəllim dedi ki, bizim nəslin “gerbində” “yaxşı ad və şərəf” sözləri qeyd olunub: “Bu, ömrü boyu atamın həyat simvolu idi. O, ailə ənənələrinə, dostlarına və sənətinə sadiq insan idi. Bu xarakter ona babalarından ötürülmüşdü...”.

Çoxsaylı mahnı və musiqi kompozisiyasının müəllifi, 70-dən artıq tamaşa və filmin bəstəkarı olan Eldar Mansurov həm də estrada sənətimizdə bir çox adların parlamasının səbəbkarı kimi tanınır. Klassik, simfonik, xor və kamera əsərləri bəstəkarın yaradıcılığında əsas yer tutur. Bu gün dünyanın 20 dilində ifa olunan “Bayatılar” onun mahnıları sırasında vizit kart hesab edilir. “Yeddi gözəl” adlı rok-operası, simfo-rok-muğam üslubunda yazdığı, atası Bəhram Mansurovun xatirəsinə həsr olunan “Bəhramnamə” əsərlərini də xüsusi qeyd etmək yerinə düşər.

60 illik yubileyində qəzetimizə müsahibəsində bəstəkar klassik, ciddi musiqini çox sevdiyini demişdi: “Konservatoriyanı bitirəndən sonra qarşıma məqsəd qoymuşdum ki, musiqinin bu sahəsi ilə məşğul olacağam.



Amma əsərlərimi qəbul etmədilər, “Əvvəl mahnı yaz, görək necə alınır, sonra əsərlərinə baxarıq” – dedilər. Bu səbəbdən də bir müddət heç nə yazmadım. Bir gün anam dedi: “Deyirlər mahnı yaz, sən də yaz. Göstər ki, mahnı da yaza bilərsən”. Beləliklə, mənim ilk mahnılarım yarandı. Bu mahnıların ilk ifaçıları Akif İslamzadə, Flora Kərimova oldu. Daha sonra Mirzə Babayev, Elmira Rəhimova, Nisə Qasımova, Yalçın Rzazadə mahnılarımı ifa etməyə başladılar. Beləcə, məndə mahnı janrı uğurlu alındı və başladım mahnılar yazmağa. Amma bununla paralel olaraq mən ciddi musiqilər də yazırdım. Eyni zamanda mahnı janrına minnətdaram ki, məni xalqa tanıtdı. Mahnılarım sayəsində simfonik və kamera əsərlərimi də lentə yazdıra bildim. Bəstələrim mənim üçün yol açdı və mən Bəstəkarlar İttifaqının 80-ci illərdə keçirilən plenum və hesabatlarında öz əsərlərimi təqdim edə bildim...”.

Sənətkar doğulduğu şəhərə sevgisini hər zaman dilə gətirir: “Mən Qala divarlarının içindəki Bakının insanıyam. Bu şəhərin havası, suyu ilə boya-başa çatmışam. Atam, babalarım tez-tez Bakının tarixindən danışardılar. Ona görə də mən şəhərin tarixini yaxşı bilirəm və əlbəttə ki, bu şəhəri çox sevirəm...”.

Estrada musiqimiz haqqında isə 10 il öncə bəstəkar belə demişdi: “Bəlkə bu gün daha yüngül ladlar – türk, yunan, ərəb ritmləri dəbdə olduğu üçün estradamız belə geriləyir. Bəzən peşəkar müğənnilər də dəbdə olan musiqi janrlarının arxasınca gedirlər. Amma mən heç bir musiqini öz klassik estrada musiqimizə dəyişmərəm. İstər ifaçılarımız olsun, istərsə də bəstəkarlarımız. Azərbaycan dünya estrada musiqisi üzərində öz klassik estrada janrını yaradıb. Bunun bünövrəsini Tofiq Quliyev, Rauf Hacıyev, Oqtay Kazımi, Emin Sabitoğlu kimi əvəzsiz bəstəkarlarımız qoyub. Onların yaratdıqları əsərlər 50-60 ildir ki, dəbdən düşmür. Belə zəngin estrada musiqisini niyə görə inkişaf etdirib yaşatmamalıyıq, yad ritmlərə üstünlük verməliyik...”.

Sənətkar 70 rəqəminə də bir az yarızarafat-yarıciddi yanaşır və deyir ki, əgər 70-ə qədər gəlib çatmışamsa, demək, davamı da gələcək...

Eldar Mansurovun nəğmələri qəlblərə nüfuz edən, yaddaşlarda əbədi iz salan musiqilərdir. Bəlkə də bəstəkar haqlı olaraq qeyd edir ki, yaxşı musiqilər ötən illərdə qaldı. “Bu gün bütün dünyada musiqi durğunluğu hökm sürür. Musiqinin ruhu onun melodiyasıdır və əgər bu gün belə deyilsə, onda hansı yüksək motivlərdən danışmaq olar? Əsas odur ki, mən daxili dünyamın ehtiyacı olan musiqini yazmağa davam edirəm, mənə ruhən yaxın olan ifaçılarla əməkdaşlıq edirəm və bundan çox məmnunam”, – sənətkar deyir.

Biz də qəzetimizin kollektivi adından yubilyara cansağlığı və könlünün hər zaman məmnun olmasını arzulayırıq.

**Lalə Azəri**

# Yubilyar səs rejissoru ilə söhbət

## Əsəd Əsədov: “Hər kəs öz bacardığı işlə məşğul olanda nəticə daha yaxşı olur”

Kinonun vacib, həlledici sahələrindən biri də səs rejissorluğu sənətidir. Səs rejissoru yalnız səs ardıcıllığının keyfiyyətinə deyil, həmçinin filmin dramaturji ardıcıllığına, səs obrazlarının (ifadəli səslərin) dolğun yaranmasına, səs və təsvirin sinxronlaşmasına nəzarət etməklə yanaşı, səsin redaktəsinə də rəhbərlik edir. Səs rejissorlarının birinci növbədə sənətə olan sevgisi, intuisiyası və diqqəti ətraf aləmin səslərini həssaslıqla dinləməyə, onları olduğu kimi, inandırıcı, yüksəkkeyfiyyətli səslərlə filmə daxil etməyə də imkan verir. Bir sözlə, ədəbi əsərlərə can, ruh verən səs sistemi ilə işləmək istedadla bərabər, bacarıq da tələb edir. Onu da qeyd edək ki, kino sənətində filmin səs həlli vacib sahə olduğu üçün səs rejissorlarının işi festivallarda xüsusi mükafatlara, diplomlara layiq görülür.

C.Cabbarlı adına “Azərbaycanfilm” Kinostudiyasında 150-dən artıq ekran işində (bədii, sənədli filmlər, “Mozalan” kinosüjetləri) çalışan, imzası olan hər bir filmdə peşəkarlıq nümayiş etdirən tanınmış səs rejissorlarından biri, Əməkdar mədəniyyət işçisi, Dövlət mükafatı laureatı Əsəd Əsədov martın 1-də 75 yaşını qeyd etdi. Bu ərəfədə yubilyarla görüşüb təbriklərimizi, xoş arzularımızı çatdırdıq və sənət həyatı, məsləyi ilə bağlı söhbət etdik.

*– Keçmişə nəzər salanda həyat, yoxsa yaradıcılıq xatirələri çox olur?*

– Həyatım və yaradıcılığım həmişə bir-biri ilə bağlı olub. İndi, şükürlər olsun, övladlarımla, nəvələrimlə nəfəs alıram. Keçmişimə də nəzər salanda fəxr edirəm ki, belə maraqlı, işgüzar həyat yaşamışam. 75 yaşa çatmışam, amma bilmirəm buna sevinim, yoxsa kədərlənim. Çünki 75 yaş sona yaxın bir həyatdır. Amma buna da şükür.

*– Niyə məhz səs rejissoru peşəsini seçdiniz?*

– Niyəsini heç özüm də bilmirəm. 1965-ci ildə sənəd vermək üçün Neft və Kimya İnstitutuna gəldim. Orda Leninqrad Kino Mühəndisləri İnstitutu üçün sənəd qəbulu da var idi. Respublika üzrə üç nəfər həmin instituta qəbul ola bilərdi. Sözün düzü, institutun adı xoşuma gəldi. Ərizə yazdım, imtahanlarımı verib qəbul olundum. Fəxr edirəm ki, beş il ərzində Leninqrad (indiki Sankt-Peterburq) kimi böyük, zəngin mədəni həyatı olan bir şəhərdə ali təhsil almışam.

1970-ci ildə kinostudiyaya gəlib işləyəndən sonra peşəmin nə dərəcədə gərəkli olduğunu bildim. Bir müddət burada mühəndis işlədim, sonra hərbi xidmətə getdim. 1974-cü ildə tərxis olunduqdan sonra kinostudiyaya qayıtdım və səs rejissoru kimi dublyaj şöbəsində işə başladım. Həmin illərdə “Azərbaycanfilm”də dublyaj şöbəsi çox aktiv fəaliyyət göstərirdi və il ərzində altmış film dublyaj olunurdu. Yadımdadı, ilk dəfə “Nənələr və nəvələr” adlı gürcü filminin dublyajında çalışdım. Ümumiyyətlə, dublyaj sənəti kinonun maraqlı bir qoludur.

*– Sənət seçiminizə ailəniz müdaxilə etmədi?*

– Yox, qətiyyən. Ümumiyyətlə, ailəmizə bu kimi hallar yad idi. Mən ziyalı ailəsində dünyaya gəlmişəm. Atam Fərrux kişi müstəntiq idi, anam Rəfiqə xanım isə uşaq həkimi. Onlar heç vaxt məslək seçimimizdə mənə, eləcə də qardaşıma və bacıma mane olmayıb, əksinə, dəyərli məsləhətlərini veriblər. Ailəmizdə həmişə xoş münasibət, qarşılıqlı sevgi hökm sürüb. Eynilə mən də uşaqlarıma bu və yaxud digər sənəti seçmələrinə qarışmamışam.



*– Filmlərin titrlərində səs operatoru və səs rejissoru adlarına rast gəlirik. Bunların fərqini açıqlayardınız.*

– İndi filmlərin sonunda səs rejissoru yazırlar, amma əvvəllər səs operatoru yazırdılar. Bir çox filmlərdə adım səs operatoru kimi gedib, buna da öyrəşmişəm. İşə gələndə isə mənim üçün bunların heç bir fərqi yoxdur.

*– Böyük kinoda ilk uğurlu işiniz hansıdır?*

– İlk uğurlu filmim rejissor Vaqif Mustafayevin “Yaramaz” (1988) filmi oldu. Bu filmə görə yaradıcı heyətlə birlikdə mənə də Dövlət mükafatı verildi. Amma bütünlükdə işlədiyim filmləri uğurlu hesab edirəm.

*– Quruluşçu rejissorların əsas tələbi nədir?*

– Onlar tələb etmirlər. Nə lazım olduğunu bildiklərinə görə səs rejissoruna səsləndirmənin icra olunmasını deyirlər. Onu da qeyd edim ki, səs rejissorları quruluşçu rejissorlarla film başa çatana qədər birlikdə işləyirlər.

*– Səs rejissorunun kinoda rolundan bəhs edərdiniz...*

– Səs rejissorluğu filmdə olduqca vacib sahədir. Bu sahənin özünəməxsus maraqlı tərəfləri var. Montaj prosesi bitdikdən sonra filmin səsləndirilməsi başlayır. Filmdə çəkilən aktyorların səsini hansı aktyorun səsləndirəcəyini ölçüb-biçirik, qərar veririk. Bu iş prosesi zamanı həyata keçirilir. Kinoda birinci adam filmin quruluşçu rejissorudur. Onun dediyinə mütləq əməl olunmalıdır. Mən həmişə rejissorlarla fikir mübadiləsi aparmışam, istəkləri ilə də qarşılıqlı anlaşmamız olub. Filmlərdə təkcə səs yox, operator, montaj işi, ümumiyyətlə, hamısı önəmlidir. Səsləndirmə prosesi ən axırda gedir. Həmişə çalışmışıq ki, filmdə səslənən həm musiqi, həm kənar səslər, həm də aktyorların səsi maraqlı olsun. Bunun üçün də çalışqanlıqla yanaşı böyük səbir tələb olunur.

*– Daha çox hansı rejissorlarla işləmək sizə yaradıcılıq stimulu verib?*

– Peşəkar rejissorlarla işləmişəm. Hamısı mənim üçün maraqlı, istedadlı insanlardır. Buna görə də fərqləndirmək istəmirəm. Onlarla işləmək mənim üçün xoş olub. İndi də onların bir çoxu ilə görüşürük, söhbətləşirik.

*– Bədii, sənədli və “Mozalan” kino süjetlərində çalışmısınız. Kinonun səs sahəsinin fərqi varmı?*

– “Mozalan”da uzun müddət işləmişəm. “Mozalan”da çəkilən filmlərin, demək olar ki, səksən faizində çalışmışam. Orda işləmək mənim üçün maraqlı idi. Çünki orda operativ olmalısan və bir çox məsələni özün həll etməlisən. Bədii filmlərdə belədir ki, musiqini bəstəkar yazır, amma “Mozalan” süjeti üçün gərək musiqini özün seçəsən. Həmin vaxtlar bizdə musiqi şöbəsi vardı. Tanınmış şair İsmayıl Dadaşov orda musiqi redaktoru kimi çalışırdı. Çox savadlı, ağıllı insan idi, onunla işləmək çox xoş idi. Biz onunla süjet üçün musiqiləri seçirdik, baş redaktor və rejissor da qəbul edirdi. Ümumiyyətlə, kino müştərək sənətdir. Bir yerdə işləyirik, çalışırıq, yeri gələndə mübahisə edirik. Bütün bunlar hamısı kadr arxasında qalan proseslərdir. Əsas odur ki, film başa çatdıqdan sonra görürsən ki, əziyyətin hədər getməyib.

*– Peşənizi tədris etmisinizmi?*

– Mən uzun müddət Dövlət İncəsənət İnstitutunda (indiki ADMİU) dərs demişəm. İnstitutun nəzdindəki “Sabah” studiyasının Rejissorluq fakültəsində peşəmin sirlərini gənclərə öyrətmişəm. Bu sahə ilə maraqlanan gənclər böyük həvəslə dərsə gəlirdilər. Hər bir sahədə müəyyən savad, bilik olmalıdır. Buna görə də bu sənətin incəliklərini bilmək vacibdir.

*– 75 yaşlı kino veteranının gənc səs rejissorlarına tövsiyəsi və tamaşaçılara ürək sözü...*

– Tamaşaçılara harda çəkilməsindən asılı olmayaraq daha çox filmlərə baxmağı, yaxşını pisdən ayırmağı arzu edirəm. Çünki özüm də həmişə fərqli janr və mövzularda filmlərə baxıram. O ki qaldı gənclərə olan tövsiyəmə, ümumiyyətlə, hər kəs öz bacardığı işlə məşğul olanda nəticə daha yaxşı olur.

**Şəhla Əmirli**
**kinoşünas**

## Xatirə təqvimi — 2–4 mart

### Azərbaycan

**2 mart 1828** – Tarixçi, şair Əhməd bəy Cəfərqulu bəy oğlu Cavanşir (1828 – 9.1.1903) anadan olub. Qarabağ xanlığının tarixinə dair kitabın müəllifidir. Qarabağ xanlığının qurucusu Pənahəli xanın nəslindəndir, Həmidə xanım Cavanşir-Məmmədquluzadənin atasıdır.

**2 mart 1945** – Tərcüməçi, nasir, filologiya elmləri doktoru Zeydulla Abdulla oğlu Ağayev (1945 – 17.2.2014) Masallı rayonunda anadan olub. İngilis dilindən ədəbi tərcümələr edib, Azərbaycan yazıçılarının əsərlərini ingiliscəyə çevirib.

**3 mart 1873** – Yazıçı, tərcüməçi Abdulla bəy İsmayıl oğlu Əfəndizadə (1873-1928) Şəkidə doğulub. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü olub, uşaqlar üçün şeirlər, hekayələr yazıb. Görkəmli maarifpərvər Rəşid bəy Əfəndiyevin qardaşıdır.

**3 mart 1875** – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri, memar Məmmədhəsən Cəfərqulu oğlu Hacınski (1875 – 9.2.1931) anadan olub. Sovet dövründə müxtəlif vəzifələrdə işləyib, 1931-ci ildə həbs edilərək güllələnib.

**3 mart 1904** – Əməkdar artist Abbas Mirzə oğlu Rzayev (1904 – 12.6.1976) Cənubi Azərbaycanın Zəncan şəhərində doğulub. 1926-cı ildən Akademik Dram Teatrının truppasında aktyor kimi fəaliyyət göstərib.

**3 mart 1912** – Yazıçı Manaf Süleymanov (1912 – 12.9.2001) anadan olub. Köhnə Bakı haqqında “Eşitdiklərim, oxuduqlarım və gördüklərim” adlı tarixi-ensiklopedik kitabın, “Dalğalar qoynunda”, “Fırtına”, “Zirvələr”, “Yerin sirri” və s. romanların müəllifidir.

**3 mart 1914** – Əməkdar artist Cəvahir Allahverdi qızı İsgəndərova (1914 – 4.10.2003) Tiflisdə doğulub. Gənc Tamaşaçılar Teatrının ilk aktrisalarından (1927-ci ildən) olub.

**3 mart 1926** – Şairə, ədəbiyyatşünas Hökumə İbrahim qızı Billuri (1926 – 22.11.2000) Cənubi Azərbaycanın Zəncan şəhərində doğulub. M.Şəhriyarın farsca şeirlərini Azərbaycan dilinə çevirib. S.Vurğun, C.Cabbarlı, M.Dilbazi və başqa ədiblərin əsərlərini fars dilinə tərcümə edib.

**3 mart 1928** – Yazıçı Namiq Ələkbər oğlu Abdullayev (1928-1992) anadan olub. Fantastik mövzuda “Sehrli oğlan”, “İtirilmiş dünya”, “Balaca Kiberin macəraları” və s. kitabların müəllifidir.

**3 mart 1937** – Yazıçı Fərman İsmayıl oğlu Kərimzadə (1937 – 17.3.1989) Ermənistanın Vedi rayonunun Böyük Vedi kəndində doğulub. “Çaldıran döyüşü”, “Xudafərin körpüsü”, “Qarlı aşırım”, “Təbriz namusu” və s. əsərlərin müəllifidir. Bədii (“Axırıncı aşırım”) və sənədli filmlər üçün ssenarilər yazıb.

**4 mart 1919** – Görkəmli aktyor, rejissor Hüseyn Məmməd oğlu Ərəblinski (Xələfov; 1881-1919) qətlə yetirilib. Azərbaycanın professional teatr sənətinin banilərindən biridir. “Müsəlman artistləri” cəmiyyətində, “Nicat” teatr cəmiyyətində çalışıb. 1916-cı ildə “Neft və milyonlar səltənətində” filmində Lütfəli bəy rolunu oynayıb.

**4 mart 1919** – Bakı milyonçusu, mesenat Ağamusa Nağıyev (1849-1919) vəfat edib. Bakıda memarlıq nümunələri olan binalar (AMEA-nın Rəyasət Heyəti (“İsmailiyyə”), Dövlət Neft Şirkətinin köhnə binası, “Üns” teatrının binası və s.) inşa etdirib.

### Dünya

**2 mart 1824** – Çex milli bəstəkarlıq məktəbinin yaradıcısı, pianoçu və dirijor Bedrix Smetana (Bedrich Smetana; 1824-1884) anadan olub.

**2 mart 1859** – Yəhudi milli ədəbiyyatının (idiş dilində) yaradıcılarından biri, yazıçı-dramaturq Şolom-Aleyxem (Şolom Naumoviç Rabinoviç; 1859-1916) anadan olub.

**3 mart 1879** – Litva lirik nəsrinin banisi, şair, publisist Yonas Bilyunas (1879-1907) anadan olub.

**3 mart 1919** – Cənubi Afrika yazıçısı Peter Abrahams (1919-2017) anadan olub. Qara Qarayev yazıçının “İldırımlı yollarla” romanının motivləri əsasında balet (libretto müəllifi – Y.Slonimski) yazıb.

**4 mart 1678** – İtalyan bəstəkarı, skripkaçı, dirijor Antonio Vivaldi (Antonio Lucio Vivaldi; 1678-1741) Venesiyada doğulub. “İlin fəsilləri” (skripka üçün 4 konsert) əsəri ilə şöhrət qazanıb.

**4 mart 1908** – Rus yazıçısı Boris Nikolayeviç Polevoy (əsl soyadı Kampov; 1908-1981) anadan olub. “Əsl insan haqqında povest”i ilə məşhurdur.

**4 mart 1925** – Fransız bəstəkarı, aranjimançı, dirijor Pol Moria (Paul Mauriat; 1925-2006) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

# “Hər birimiz bir çiçək” – muzeydə Abdulla Şaiqin doğum günü



Fevralın 24-də maarifpərvər şair, yazıçı, Azərbaycan uşaq ədəbiyyatına böyük töhfələr vermiş Abdulla Şaiqin (1881–1959) anadan olmasının 141-ci ildönümü tamam olub.

Bu münasibətlə Abdulla Şaiqin Mənzil-Muzeyində Bakı şəhəri 54 nömrəli tam orta məktəbin şagirdlərinin iştirakı ilə “Hər birimiz bir çiçək” adlı tədbir keçirilib.

Tədbirdə Abdulla Şaiq adına 54 nömrəli tam orta məktəbin direktor müavini Təranə Seyidova, ədəbiyyat müəllimi Rəfiqə Hüseynova, Abdulla Şaiq adına kitabxananın müdiri Yəmən Əmirova, mənzil-muzeyin müdiri Ülkər Talıbzadə, muzeyin əməkdaşları – filologiya üzrə fəlsəfə doktoru Arzu Hacıyeva, Günel Əsədova, Arzu Nuralıyeva çıxış ediblər.

Çıxış edənlər Abdulla Şaiqin zəngin yaradıcılığından, maarifçilik fəaliyyətindən söz açıb, ədibin adını daşıyan mədəniyyət və təhsil ocaqlarından bəhs edib, muzeyin yaradıcısı – ədibin oğlu akademik Kamal Talıbzadə haqqında xatirələrini bölüşüblər.

Tədbirin bədii hissəsində məktəblilər ədibin müxtəlif şeirlərini söyləyib, sözlərinə bəstələnmiş mahnıları ifa ediblər.

# Məmməd Səid Ordubadi və Qulam Məmmədlinin yubileyləri qeyd olunacaq

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Elmi şuranın növbəti iclası keçirilib.

AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli gündəlikdəki məsələlər barədə məlumat verib. İclasda görkəmli ədib Məmməd Səid Ordubadinin (1872-1950) 150 illik və teatrşünas, publisist Qulam Məmmədlinin (1897–1994) 125 illik yubileylərinin keçirilməsi haqqında məsələlərə baxılıb.

Həmçinin çap və müsabiqə məsələləri müzakirə edilib. On şöbə üzrə seçkilərin keçirilməsi məsələsinə baxılıb. Üç şöbəyə müdir, yeddi şöbəyə elmi işçilərin seçilməsi və bir nəfərin dosent elmi adı almasına dair məsələlər səsə qoyularaq qəbul olunub.

# Vaşinqtonda Xocalı soyqırımının 30-cu ildönümü qeyd edilib




Vaşinqtondakı Kennedi Mərkəzinin Ədalət Forumu (Justice Forum) zalında Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı anım tədbiri keçirilib.

Azərbaycanın ABŞ-dakı Səfirliyi tərəfindən təşkil olunmuş "Həqiqət və ədalət" başlıqlı tədbirdə Türkiyə, Pakistan və Qırğızıstan səfirləri, diplomatik korpusun nümayəndələri, ABŞ-ın beyin mərkəzlərinin əməkdaşları, yerli ictimaiyyət təmsilçiləri, azərbaycanlı icması iştirak edib.

Xocalı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Ermənistanın təcavüzü nəticəsində ailəsi ilə bərabər köçkün düşmüş əslən şuşalı olan Arzu Məmmədova Xocalı faciəsi barədə danışıb, soyqırımı nəticəsində valideynlərini itirmiş uşaqlardan aldığı müsahibələrdən təəssüratlarını bölüşüb.

Ölkəmizin ABŞ-dakı səfiri Xəzər İbrahim Xocalı soyqırımının tarixi və mahiyyətindən bəhs edib. Bildirib ki, Xocalı soyqırımının yalanlarla gizlədilməyə çalışılmasına baxmayaraq, bu faciə tarixin yaddaşına həkk olunub. Xəzər İbrahim ABŞ mətbuatında və beynəlxalq hesabatlarda dərc olunmuş məqalələrin əhəmiyyətini diqqətə çatdıraraq, səfirlik tərəfindən bu məlumatlardan ibarət kitabçanın nəşr edildiyini deyib.

Türkiyənin ABŞ-dakı səfiri Murad Mərcan çıxış edərək yüzlərlə azərbaycanlının həlak olduğu və minlərlə insanın zərər çəkdiyi Xocalı qətliamının Türk dünyasının faciəsi olduğunu bildirib.




Səfir Azərbaycanın 44 günlük müharibədə Qələbəsindən bəhs edərək, Xocalı qurbanlarına qarşı cinayətin unudulmamasının vacibliyini vurğulayıb.

Anım tədbirində Xocalı soyqırımı zamanı ölkəmizdə olan, faciənin nəticələrinə şahidlik edən amerikalı jurnalist, "Azərbaycan gündəliyi" kitabının müəllifi Tomas Qoltzun videomüraciəti də təqdim olunub. O, Xocalıda şahid olduğu dəhşətlərdən söz açaraq Xocalıya ədalət naminə əlindən gələni etməyə hazır olduğunu bildirib. T.Qoltz "Azərbaycan gündəliyi"nin davamı olaraq yeni kitab üzərində işlədiyini və bu kitabda Azərbaycanın mədəniyyətini, ənənələrini, insanların tolerantlığını tərənnüm edəcəyini deyib.

Rəsmi hissədən sonra Azərbaycan muğamının tədqiqatçısı, kamança ifaçısı Cefri Verbok, ABŞ-da yaşayan azərbaycanlı pianoçu, "Milli musiqi və qlobal mədəniyyət" cəmiyyətinin rəhbəri Nərgiz Əliyarova və skripkaçı Azər Dəmirov Xocalı qurbanlarının xatirəsinə ithaf olaraq musiqi proqramı təqdim ediblər.

Azərbaycan səfirliyinin nəşr etdirdiyi "Xocalı soyqırımı: ABŞ mediasında və beynəlxalq hesabatlarda" adlı kitabça tədbir iştirakçılarına paylanılıb.

# Həyatda qalmaq haqqında...

## Londonda Xocalı ilə bağlı tamaşa

Londondakı "St Paul's" kilsəsində Xocalı soyqırımının 30-cu ildönümünə həsr edilmiş tamaşa nümayiş olunub. Tamaşa "Xocalı – həyatda qalmaq haqqında oyun" layihəsi çərçivəsində Britaniya Azərbaycanlıları İcması (BAC) və London Azərbaycan Evinin, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə təqdim edilib.




Nümayişdən öncə çıxış edən ölkəmizin Böyük Britaniya və Şimali İrlandiya Krallığındakı səfiri Elin Süleymanov Azərbaycan xalqına qarşı törədilmiş bu faciəni XX əsrin ən qanlı hadisələrindən biri adlandırıb.

Tamaşa Britaniyada yaşayan rejissor, yazıçı, "Debunk" teatrının prodüseri Sənan Əliyevin müəllifi olduğu layihə əsasında ərsəyə gəlib. Yaradıcı heyət bu məqsədlə Azərbaycana gələrək Xocalıdan olan məcburi köçkünlərlə də görüşüb və toplanmış materiallar əsasında pyes yazılıb. Pyesin süjeti Xocalıdakı insanların müharibədən əvvəl, müharibə dövrü və müharibədən sonrakı həyatını əhatə edir.

Britaniyalı aktyorların yer aldığı "Debunk" teatrı tərəfindən hazırlanan tamaşa maraqla qarşılanıb.

# "Netflix" Lissabonun mərkəzində döyüş filmi çəkəcək

Amerikalı multimedia nəhəngi "Netflix" yeni film layihəsində bir neçə döyüş səhnəsinin çəkilişi üçün Portuqaliya paytaxtını seçib. Çəkilişlər 2022-ci ilin iyulunda bir həftə ərzində aparılacaq.



Məlumata görə, Lissabonun "Prasa du Komersiu" ticarət meydanını əhatə edən ərazilərdə həyata keçiriləcək çəkilişlərdə odlu silah, pirotexniki vasitələrdən istifadə olunacaq, avtomobil və motosikletlərdə təqiblər də lentə alınacaq.

Lissabonda bu miqyasda sonuncu layihə "La Casa de Papel" ("Kağız ev") serialının çəkilişləri zamanı həyata keçirilib.

# "Adsız qadın" İstanbul səhnəsində





İstanbulda Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş "Adsız qadın" teatr tamaşasının nümayişi olub.

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi və İstanbulun Ümraniye Bələdiyyəsinin dəstəyi, Türkiyədə fəaliyyət göstərən "Xarıbülbül" Azərbaycan Vizyon Teatr Dərnəyinin təşkilatçılığı ilə səhnələşdirilən tamaşa dünyada müharibə və terrordan əziyyət çəkən bütün qadınlara həsr olunub.

Tədbirin rəsmi hissəsində çıxış edənlər bundan otuz il əvvəl ermənilər tərəfindən Xocalıda törədilən soyqırımından danışıb, tarixin qanlı səhifəsi olan bu insanlıq əleyhinə cinayətin səbəbkarlarının ədalət məhkəməsi qarşısında cavab verməsini tələb ediblər.

Tədbir çərçivəsində Ümraniye Bələdiyyəsinin binasında Xocalı soyqırımını əks etdirən fotolardan ibarət sərgi də açılıb.

# Müharibənin susdurduğu sənət...



Fevralın 24-də Rusiyanın Ukraynaya qarşı başladığı müharibə incəsənət aləmindən də yan keçməyib. Qədim Roma dövründən qalan və zamanla mənası bir az dəyişən məşhur aforizmdə ifadə olunduğu kimi, toplar dillənəndə muzalar (sənət) susur...

Böyük Britaniyanın "Kovent-Qarden" teatrı Ukraynadakı vəziyyətilə əlaqədar Moskva Böyük Teatrı artistlərinin Londona qastrolunu ləğv edib. Avropanın, demək olar ki, bütünlüklə hava məkanını Rusiya təyyarələri üçün bağlamasından sonra zatən bu qastrol səfərinin gerçəkləşməsi də mümkün deyildi.

***

Tanınmış xoreoqraf Aleksey Ratmanski Böyük Teatrda hazırladığı tamaşanın premyerasını təxirə salıb. Teatrdan verilən açıqlamaya görə, "Fuqa sənəti" baletinin nümayişi qeyri-müəyyən müddətə ertələnib. Fevralın 24-də Moskvanı tərk edən xoreoqraf deyib: "Zamanı gələndə Moskvaya qayıdıb quruluş üzərində işimi tamamlayacağam...".

Sankt-Peterburqda doğulmuş Aleksey Ratmanskinin uşaqlığı Kiyevdə keçib, Ukrayna Milli Opera və Balet Teatrının artisti olub, ilk sənət mükafatını isə Donetskdə keçirilən balet artistləri müsabiqəsində (1988) qazanıb. Uzun illərdir ABŞ-da yaşayır.

***

Latviya Milli Opera və Balet Teatrında fevralın 25-dən etibarən hər tamaşadan öncə Ukraynanın himni səslənir. Teatrın saytında yer alan məlumatda o da bildirilir ki, teatr yalnız Rusiyanın Ukraynaya qarşı başladığı hərbi əməliyyatı pisləyən sənətçilərlə əməkdaşlıq edəcək. "Biz həmçinin digər prodüserlərin teatrımızın səhnəsində təşkil etdiyi konsertlərdə çıxış edəcək artistləri də öz mövqeyini açıq bildirməyə çalışırıq. Əks halda müqavilələr pozulacaq...", – deyə məlumatda qeyd olunur.

***

K.Stanislavski və V.Nemiroviç-Dançenko adına Moskva Akademik Musiqili Teatrı balet truppasının rəhbəri, fransız rəqqas və xoreoqraf Loran İler vəzifəsindən istefa verdiyini bildirib. Fevralın 27-də truppanın yığıncağında o, qərarını "geosiyasi situasiya" ilə izah edərək işdən çıxmaq barədə ərizə yazdığını deyib: "Gedişimdən kədərlənsəm də, situasiya mənim sakit işləməyimə imkan vermir".

Teatr da bu barədə açıqlama yayıb: "Biz bu qərarı təəssüflə qarşılayır və məhsuldar çalışdığı illər üçün Loran İlerə minnətdarlığımızı bildiririk...".

Avropanın tanınmış xoreoqraflarından olan Loran İler 2017-ci ilin yanvarından Moskva Akademik Musiqili Teatrı balet truppasının bədii rəhbəri idi. Teatrla əməkdaşlıq müqaviləsi ötən payız daha üç il uzadılmışdı.

***

Rusiyanın Ukraynaya qoşun yeritməsi ilə dünya şöhrətli neçə sənətçi bu ölkənin səhnələrində çıxışdan imtina edib. Moskva Dövlət Filarmoniyasında pianoçu Yefim Bronfman (2 mart), Nikolay Snayder (4 mart), Kristof Eşenbax (12 mart) və Semyon Bıçkovun (28 iyun) konsertləri təxirə salınıb.

***

Nyu-Yorkun məşhur konsert salonu "Carnegie Hall" dünya şöhrətli rus dirijor Valeri Gergiyevin Vyana Filarmonik Orkestri ilə nəzərdə tutulan konsertdə çıxış etməyəcəyini, onu kanadalı dirijor Yannik Nezet-Seqinin əvəz edəcəyini bildirib. Bundan əlavə, məşhur rusiyalı pianoçu Denis Matsuyevin konsertdə iştirakı da ləğv edilib.

Münxen Filarmonik Orkestri isə Valeri Gergiyevin 2015-ci ildən bəri çalışdığı baş dirijor vəzifəsindən azad olunduğunu elan edib.

***

"Disney", "Sony" və "Warner Bros" kino şirkətləri Ukraynadakı müharibə ilə əlaqədar yeni filmlərinin Rusiya kinoteatrlarında nümayişini ləğv ediblər. Bu barədə "Washington Post" qəzeti "Warner Bros" şirkətinin bəyanatına istinadən yazır. "Warner Bros" "The Batman" filminin martın 2-də premyerası öncəsi Rusiyada bütün prokatı ləğv edib.

**Gülcahan**

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 192 il əvvəl...

**3 mart 1830-cu ildə** Azərbaycanın Car-Balakən bölgəsində çar Rusiyasının işğalçılıq siyasətinə qarşı üsyan yatırılıb. Bölgənin Rusiyaya birləşdirilməsindən sonra muxtar ərazi kimi mövcud olan Car-Balakən camaatlığı ləğv olunub və Rusiya ordusunun Qafqaz komandanlığının birbaşa idarəçiliyi tətbiq edilib.

### 144 il əvvəl...



**3 mart 1878-ci ildə** Rusiya ilə Osmanlı arasında iki il sürən müharibənin yekunlarına dair San-Stefano (İstanbulun indiki Yeşilköy rayonu) sülh müqaviləsi imzalanıb. Osmanlı imperiyasının tərkibində olan Bolqarıstan muxtar knyazlıq statusu alıb və Rusiyanın nəzarətinə verilib.

### 105 il əvvəl...

**1 mart 1917-ci ildə** ABŞ I Dünya müharibəsinə qoşulub. Müharibədə bütün tərəflərin əldən düşdüyü vaxtda (o cümlədən Rusiyada monarxiyanın süqutu) bu addımı atan ABŞ bir il sonra başa çatan müharibədən mühüm geosiyasi dividentlər əldə etdi.

### 104 il əvvəl...

**3 mart 1918-ci ildə** I Dünya müharibəsinin ilkin yekunlarına dair sovet Rusiyası ilə Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan və Türkiyə arasında Brest sülhü imzalanıb. Müqaviləyə görə, Rusiya Ukrayna, Polşa, Baltikyanı ölkələr və indiki Belarusun bir hissəsi, həmçinin Cənubi Qafqazı itirirdi. Lakin müqavilə, Leninin sözləri ilə desək, bolşeviklərə "nəfəs dərmək" üçün vacib idi. 1919-cu ildə "Brest müqaviləsi"ndən çıxan bolşevik Rusiyası, Polşa və Baltikyanı ölkələr (1940-cı ildə SSRİ-yə birləşdirildi) istisna olmaqla, itirdiyi əraziləri sovetləşmə adı ilə nəzarət altına aldı.

### 68 il əvvəl...



**1 mart 1954-cü ildə** ABŞ Marşall adalarında (Sakit okeanda ABŞ-ın nəzarətindəki adalar; 1986-cı ildə müstəqillik əldə edib) hidrogen bombasını ilk dəfə sınaqdan çıxarıb. Nüvə yarışı yeni mərhələyə qədəm qoyub.

### 67 il əvvəl...

**2 mart 1955-ci ildə** SSRİ rəhbərliyi ölkədə taxıl istehsalını artırmaq üçün Qazaxıstandakı xam torpaqların işlənməsi barədə qərar verib. Müttəfiq respublikadan minlərlə insan xam torpaqlara göndərildi. Qazaxıstan Ukraynadan sonra SSRİ-nin ikinci "taxıl anbarı"na çevrildi.

### 66 il əvvəl...

**2 mart 1956-cı ildə** Fransanın Şimali Afrikadakı müstəmləkəsi Mərakeş müstəqilliyini elan edib. Onun müstəqilliyini ilk tanıyanlardan biri Fransanın özü oldu.

### 53 il əvvəl...



**2 mart 1969-cu ildə** Ussuri çayı üzərində SSRİ ilə Çin qoşunları arasında sərhəd toqquşması olub. Ərazisi cəmi 0,74 kvadrat kilometr olan Damansk (Çin dilində Çjenbao) adasına nəzarət üstündə daha bir toqquşma 15 martda baş verdi. Tərəflərin 100-300 nəfər itkiləri oldu. Ada neytral ərazi kimi qaldı. 2004-cü ildə Rusiya ilə razılaşma ilə ada Çinin yurisdiksiyasına keçdi.

### 31 il əvvəl...

**3 mart 1991-ci ildə** Latviya və Estoniyada SSRİ-nin tərkibindən çıxmaq barədə referendum keçirilib. Referendumun nəticələrinə əsasən, hər iki respublika müstəqilliyini elan etdi.

### 30 il əvvəl...

**2 mart 1992-ci ildə** BMT Baş Assambleyasının sessiyasında keçmiş SSRİ-nin 8 respublikası – Azərbaycan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Moldova quruma üzv qəbul olunub. Gürcüstanda Qamsaxurdianın devrilməsindən sonra legitim hakimiyyət olmadığı üçün Baş Assambleya bu respublika barəsində qərarı bir qədər sonra, 1992-ci il iyulun 31-də qəbul etdi. Baltikyanı respublikalar 1991-ci ildə BMT-yə qəbul olunmuşdu. Rusiya, Ukrayna və Belarus isə formal olaraq 1945-ci ildən BMT-nin üzvü idi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 669
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641